# AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ

**ÜÇÜNCÜ ÇAĞIRIŞ**

Azərbaycan Respublikası
Milli Məclisinin nəşri
Bakı – 2009



*«Hər bir demokratik dövlətdə...  qanunvericilik fəaliyyəti çox mühüm əhəmiyyət kəsb edir».*

**Azərbaycan xalqının ümummilli lideri**
**Heydər ƏLİYEV**

✵ ✵ ✵

*«Müstəqil Azərbaycan Respublikasının millət vəkili, Milli Məclisin deputatı olmaq böyük şərəf  və  məsuliyyətdir».*

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**

**Məsul redaktor**
***Oqtay ƏSƏDOV***

# AZƏRBAYCAN PARLAMENTİ YENİ DÖVRDƏ

Məlum olduğu kimi, parlamentarizm demokratik düşüncə və həyat tərzi ilə sıx bağlı olub cəmiyyətin təkamül yolu ilə inkişafını, ictimai quruluşun dəyişən həyat şəraitinə uyğunlaşmasını təmin edən ən mühüm vasitələrdən biridir. Azərbaycanda parlamentarizmin zəngin tarixi vardır. Hələ ötən əsrin əvvəllərində xalqımız bu günün parlamentarizm modelinə uyğun gələn qanunvericilik orqanı təsis etmişdir.

Bu yaxınlarda 90 illik yubileyini qeyd etdiyimiz həmin Azərbaycan parlamenti 1918–1920-ci illərdə cəmi 17 ay fəaliyyət göstərməsinə baxmayaraq, Şərq aləmində ilk demokratik və dünyəvi dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi təməlini qura bilmişdi. Parlamentin dövlət quruculuğu, iqtisadi, sosial, mədəni və hərbi sahələrdə qəbul etdiyi mütərəqqi qanunvericilik aktları müstəqil dövlətin səmərəli fəaliyyətinə imkan yaratmışdı.

1920-ci ilin aprel ayında bolşevik Rusiyasının silahlı təcavüzü nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradıqdan sonra digər hakimiyyət strukturları kimi parlamentin də fəaliyyətinə son qoyulmuşdur. Sovet rejiminin 70 illik hakimiyyəti dövründə Azərbaycanın ali qanunvericilik orqanı məlum səbəblərə görə cüzi səlahiyyətlərə malik olmuşdur. Lakin belə bir məhdud şəraitdə də Azərbaycan xalqı parlamentarizm ənənələrini yaşada bilmişdir. Xüsusən 1969–1982-ci illərdə ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə Ali Sovetin işi xeyli fəallaşmış, daimi komissiyaların səmərəli işləməsi üçün tədbirlər görülmüşdü. Azərbaycan parlamenti respublikanın iqtisadi, mədəni inkişafı üçün hüquqi baza yaradan onlarca qanun qəbul etmişdi.

Heydər Əliyevin rəhbərliyi ilə fəaliyyət göstərən Konstitusiya komissiyasının hazırladığı və 1978-ci il aprelin 21-də qəbul edilmiş

Azərbaycan SSR-in yeni Konstitusiyası mövcud olan məhdud imkanlar daxilində xalqın mənəvi sərvətlərinin, xüsusən dilinin qorunub saxlanması və inkişaf etdirilməsi üçün hüquqi əsasları genişləndirmiş, Azərbaycan dilinə respublikada dövlət dili statusu verilmişdi.

Ümummilli liderimizin respublikaya rəhbərlik etdiyi illər siyasi, iqtisadi, mədəni yüksəliş dövrü kimi tariximizə daxil olaraq xalqımızın milli mənlik şüurunun oyanışına güclü təkan verdi. Məhz həmin dövrdə imperiya tərkibində olmağımıza baxmayaraq, Azərbaycanın gələcək siyasi və dövlət müstəqilliyi üçün əsaslı zəmin və möhkəm bünövrə yaradıldı.

1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan yenidən öz istiqlalına qovuşdu. Müstəqilliyin ilk illərində baş verən hadisələr 1918–1920-ci illərdə cərəyan edən hadisələrin təxminən eyni idi. Əsrin sonlarında yaranmış Azərbaycan dövləti əsrin əvvəllərində süquta uğramış Azərbaycan dövlətinin aqibətini yaşamağa yaxın idi. Lakin bu dəfə XX əsrin ən böyük şəxsiyyətlərindən olan Heydər Əliyevin zəkasının, iradəsinin və qətiyyətinin gücü tarixin gedişini dəyişdirməyə qadir oldu. Ulu öndərimizin sayəsində Azərbaycan uçurumun bir addımlığından geri döndü, itirmək üzrə olduğu siyasi və dövlət müstəqilliyini qoruyub saxlaya bildi, xalqımız yadların əsarətinə düşmək təhlükəsindən xilas oldu.

Qeyd etmək lazımdır ki, Heydər Əliyevin böyük siyasətə qayıdışı 1993-cü il iyunun 15-də onun Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi ilə başlanmışdır. Ümummilli liderimiz Prezident seçilənədək dörd ay parlamentə rəhbərlik etmişdir. Heydər Əliyevin Azərbaycan parlamentinin Sədri kimi fəaliyyəti ölkəmizdə parlamentarizm ənənələrinin inkişafında müstəsna rol oynamışdır. Sonrakı dövrdə də ulu öndər qanunvericilik orqanına daim böyük qayğı göstərmiş, parlament quruculuğu məsələlərini diqqət mərkəzində saxlamışdır.

Ümummilli liderimizin rəhbərlik etdiyi komissiya tərəfindən hazırlanmış və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş müstəqil Azərbaycanın ilk Konstitusiyası hüquqi, demokratik, dünyəvi dövlət quruculuğunun əsaslarını müəyyən etdi, yeni siyasi və hüquqi sistemin yaradılmasına yol açdı. Azərbaycanda ilk dəfə olaraq real hakimiyyət bölgüsü təmin olundu. Dövlət hakimiyyəti sistemində Milli Məclisin yeri və rolu dəqiq təyin edildi.

Yeni Konstitusiyanın qəbul edilməsi ilə eyni gündə Milli Məclisə seçkilər keçirildi. Müstəqil dövlət quruculuğunun qanunvericilik təminatını yaratmağa qadir olan parlament formalaşdırıldı. Artıq 13 ildən çoxdur ki, Azərbaycan Respublikasının Milli Məclisi qanunvericilik hakimiyyəti səlahiyyətlərini uğurla həyata keçirir. Parlament ölkəmizdə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğunun, demokratikləşdirmə prosesinin, bazar iqtisadiyyatı prinsiplərinin tətbiqinin möhkəm qanunvericilik bazasını yaratmış və təkmilləşdirmişdir. 1995-ci ildən indiyədək Milli Məclis dövlət və cəmiyyət həyatının müxtəlif sahələrini nizama salan 2500-dən çox qanun və qərar qəbul etmişdir.

Üçüncü çağırış Azərbaycan Respublikasının Milli Məclisinə 2005-ci il noyabrın 6-da keçirilmiş seçkilər ölkəmizin siyasi inkişafında mühüm bir mərhələ təşkil etmişdir. Parlament seçkiləri demokratiyanın nümayişinə çevrilmiş, ölkəmizi Avropa xalqları ailəsinə bir qədər də yaxınlaşdırmışdır. Milli Məclisə seçkilərin azad, ədalətli və şəffaf şəraitdə keçirilməsi üçün Azərbaycan dövlətinin rəhbərliyi tərəfindən bütün zəruri tədbirlər görülmüşdü. Bu seçkilərdən sonra Milli Məclisin 115 deputatının mandatı təsdiq edilmişdi. 10 seçki dairəsi üzrə seçkilərin nəticələri Mərkəzi Seçki Komissiyası və Konstitusiya Məhkəməsi tərəfindən etibarsız hesab olunmuşdu. Həmin dairələr üzrə təkrar seçkilər 2006-cı il mayın 13-də keçirilmiş, beləliklə, Milli Məclisin tam tərkibi formalaşdırılmışdır.

Ölkəmizdə fəaliyyət göstərən siyasi qüvvələrin bütün spektri parlamentdə təmsil olunmuşdur. Milli Məclisdəki deputat mandatlarının əksəriyyəti cəmiyyətin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasına mənsubdur.

Parlamentin intellektual səviyyəsi qanunyaratma və qanunvericilik sahəsində qarşıya qoyulan hər bir mürəkkəb vəzifəni yerinə yetirməyə imkan verir. 10 deputat Azərbaycan MEA-nın həqiqi və ya müxbir üzvü, 15 deputat xarici ölkələrin elmlər akademiyalarının üzvüdür. Milli Məclisin 35 üzvü elmlər doktoru, 25 üzvü isə elmlər namizədidir.

Ötən dövr ərzində parlamentin fəaliyyətinə nəzər salarkən ilk növbədə onu söyləmək lazımdır ki, Azərbaycanda parlamentarizm ənənələri daha da inkişaf etmiş və zənginləşmişdir. Milli Məclisin peşəkarlıq səviyyəsi yüksəlmişdir.

Parlament hər il iki növbəti yaz və payız sessiyalarına yığılır. Konstitusiyada nəzərdə tutulan hallarda Milli Məclisin növbədənkənar sessiyaları çağırılır. Parlamentin iclasları, bir qayda olaraq, ayda iki dəfədən az olmayaraq keçirilir. Milli Məclis öz səlahiyyətlərinə aid məsələlər üzrə Konstitusiya qanunları, qanunlar və qərarlar qəbul edir.

Parlamentin büdcəyə nəzarət funksiyalarının həyata keçirilməsi üçün Milli Məclis Azərbaycan Respublikasının Hesablama Palatasını yaratmışdır. Milli Məclisdə 11 daimi komissiya, Hesablayıcı və İntizam komissiyaları fəaliyyət göstərir.

Uzun əsrlər boyu Avropa demokratiyasının təcrübəsində sınaqdan çıxarılmış çoxpartiyalılıq, plüralizm, qanunun aliliyi prinsipləri ötən illərdə Azərbaycan parlamentinin praktikasında da özünü doğrultmuşdur. Bizim təcrübəmiz də göstərir ki, cəmiyyətdə mövcud olan siyasi qüvvələrin, cərəyanların və fikirlərin bütün spektrini əks etdirən parlament əsl demokratiya və siyasi mədəniyyət məktəbi olmaqla, ictimai münasibətlər sistemindən, insanların psixologiyasından totalitar irsin qalıqlarının silinməsinə kömək göstərir. Parlament milli qanunvericiliyi Avropa hüquq normalarına və standartlarına uyğunlaşdırmaq, problemlərin açıq müzakirəsini aparmaq yolu ilə demokratik təsisatları möhkəmləndirir, söz, mətbuat, vicdan, birləşmək, sərbəst toplaşmaq və digər siyasi azadlıqların reallaşmasına, qanunun aliliyinin bərqərar edilməsinə zəmin yaradır.

Milli Məclis Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin daxili və xarici siyasətini parlament vasitələrinin köməyi ilə fəal surətdə dəstəkləyir. Ölkədə uğurla həyata keçirilən siyasi, iqtisadi, hüquqi, sosial islahatların, demokratikləşdirmə prosesinin hüquqi mexanizmi daha da inkişaf etdirilir və təkmilləşdirilir. 2005-ci il dekabrın 2-dən bəri parlamentin 100-dən çox iclası keçirilmiş, 750-dən artıq qanunvericilik aktı qəbul edilmişdir. Milli Məclisin Konstitusiya ilə nəzərdə tutulan qanunvericilik səlahiyyətləri tam həcmdə yerinə yetirilmişdir.



Qanunyaratma və qanunvericilik məsələlərinin həllində Milli Məclis qabaqcıl dünya təcrübəsindən və Avropa parlamentarizmi ənənələrindən bəhrələnməyə çalışır. Qanunvericilik fəaliyyəti ilə yanaşı, parlament ölkəmizdə və beynəlxalq aləmdə baş verən mühüm siyasi hadisələrə münasibətini bildirir, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, yalançı erməni təbliğatının, o cümlədən qondarma «erməni soyqırımı» əfsanəsinin ifşa edilməsi üçün zəruri tədbirlər görür.

Milli Məclisin beynəlxalq ikitərəfli və çoxtərəfli əlaqələrinin inkişafına xüsusi diqqət yetirilir. Bu məqsədlə parlamentlərarası əməkdaşlığın müxtəlif formalarından istifadə olunur. İndiyədək xarici ölkələrin qanunvericilik orqanları ilə əməkdaşlıq və qarşılıqlı əlaqə haqqında 10-dan çox saziş bağlanmışdır. Milli Məclisdə 73 xarici ölkənin parlamentləri ilə əlaqələr üzrə işçi qrupları yaradılmışdır.

Məlum olduğu kimi, Milli Məclis ölkəmizin üzv olduğu beynəlxalq təşkilatların parlament məclislərinin, o cümlədən ATƏT-in Parlament Assambleyasının, Avropa Şurası Parlament Assambleyasının, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin, MDB Parlamentlərarası Assambleyasının, İslam Konfransı Təşkilatı Parlament Məclisinin, Türkdilli Dövlətlərin Parlament Assambleyasının və digər nüfuzlu təşkilatların üzvüdür. Milli Məclisin nümayəndə heyətləri beynəlxalq təşkilatların toplantılarında müntəzəm iştirak edir, dövlətimizin müxtəlif məsələlərə dair mövqeyini beynəlxalq aləmə çatdırmaq üçün bu vasitədən də səmərəli istifadə edirlər.

Gündəlik fəaliyyətində Milli Məclis mərkəzi və yerli icra və məhkəmə hakimiyyəti orqanları, ölkənin aparıcı elm, təhsil və yaradıcılıq mərkəzləri ilə sıx qarşılıqlı əlaqə saxlayır. Hakimiyyətin müxtəlif qolları arasında əməkdaşlıq ölkəmizin qüdrətli bir dünya dövlətinə çevrilməsinə yönəlmiş strateji inkişaf xəttinin uğurla həyata keçməsini təmin edir.

Üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin fəaliyyəti ölkəmiz üçün əlamətdar bir dövrə təsadüf edir. Bu gün Azərbaycan Cənubi Qafqaz bölgəsində mühüm geosiyasi mövqe tutan, hüquqi,

demokratik və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyəti yaradılması yolunda qazandığı uğurları ilə dünyanın diqqətini özünə cəlb edən, gözəl perspektivlərə malik olan bir dövlətdir.

Həyatımızın elə bir sahəsi yoxdur ki, orada dirçəliş, çiçəklənmə, yenilik havası hiss edilməsin. Dövlətimizin imkanlarının artması cəmiyyət həyatının bütün sahələrinə təsir göstərir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Milli Məclisə çox böyük diqqəti və qayğısı sayəsində parlamentin plenar və kiçik iclas salonları, birinci və ikinci mərtəbələrindəki geniş foyelər dünya standartlarına uyğun olaraq yenidən qurulmuş, ulu öndərimiz Heydər Əliyevin heykəli ucaldılmış və ona həsr edilən xatirə zalı yaradılmış, binanın önündə fəvvarələr kompleksi inşa edilmişdir. Hazırda Milli Məclisin inzibati binasında əsaslı təmir işləri aparılır, parlamentin yeni korpusunun tikintisi davam etdirilir. Məqsədimiz parlamentin deputatlarının və aparatın əməkdaşlarının fəaliyyəti üçün lazımi şərait yaratmaqdır.

Xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycanın qanunvericilik orqanını dünyanın inkişaf etmiş ölkələrinin parlamentləri səviyyəsində görməyi arzulayırdı və bunun üçün çox böyük zəhmət sərf etmişdi. Sevindirici haldır ki, başqa sahələrdə olduğu kimi, bu sahədə də ulu öndərimizin başladığı işlər əzmlə və ardıcıl surətdə davam etdirilir.

Bütün bunlar bizi öz işimizə daha məsuliyyətlə yanaşmağa, dövlətimizin daha da möhkəmlənməsi və inkişaf etməsi, xalqımızın rifah halının yüksəlməsi naminə var qüvvəmizlə çalışmağa sövq edir. Əminəm ki, belə də olacaq, Milli Məclis öhdəsinə düşən bütün vəzifələri layiqincə yerinə yetirəcək, Azərbaycanın qabaqcıl dünya dövlətləri sırasına çıxarılması üçün görülən işlərə var gücü ilə kömək göstərəcəkdir.

***Oqtay ƏSƏDOV,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***





# MƏLUMATLAR



**Vasif Yusif oğlu**
**TALIBOV**

*1 saylı Şərur-Sədərək seçki dairəsi*

1960-cı il yanvarın 14-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Aralıq kəndində anadan olmuşdur. Naxçıvan Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsini və Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. İqtisad elmləri namizədi, dosentdir. Rus dilini bilir.

1981-ci ildən Şərur rayonunun Dəmirçi kənd orta məktəbində müəllim, 1982-ci ildən Naxçıvan trikotaj paltarları fabrikində kadrlar üzrə təlimatçı, xüsusi şöbənin rəisi işləmişdir. 1991-ci ildən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin baş köməkçisi, 1994-cü ildən Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini vəzifələrində çalışmışdır. 1995-ci ildən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədridir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının və İdarə Heyətinin üzvüdür.

Birinci və ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Azərbaycan-İran parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Amerika Birləşmiş Ştatları, Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 3 övladı var.



**İsa Əkbər oğlu**
**HƏBİBBƏYLİ**



*2 saylı Şərur seçki dairəsi*

1949-cu il oktyabrın 16-da Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Danzik kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstitutu Naxçıvan filialının dil-ədəbiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Filologiya elmləri doktoru, professordur. Əməkdar elm xadimidir. «Şöhrət» ordeni ilə təltif edilmişdir. Yusif Məmmədəliyev mükafatı laureatıdır. Azərbaycan Milli Elmlər Akademiyasının, Nyu-York Elmlər Akademiyasının, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, Atatürk Kültür, Dil və Tarix Qurumunun müxbir üzvüdür. Azərbaycan Yazıçılar Birliyinin və Jurnalistlər Birliyinin üzvüdür. Müxtəlif dillərdə çap olunmuş 62 monoqrafiyanın, broşürün, dərsliyin, metodik vəsaitin və tərtib kitabının, 300-dən çox elmi məqalənin müəllifidir. Rus dilini bilir.

1971-ci ildən Şərur rayonunda kənd orta məktəbində müəllim işləmişdir. 1975-ci ildən Naxçıvan Dövlət Universitetində müəllim, dosent, elmi işlər üzrə prorektor vəzifələrində çalışmışdır. 1996-cı ildən Naxçıvan Dövlət Universitetinin rektorudur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Birinci və ikinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Belçika, Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan-Pakistan, Azərbaycan-Yaponiya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

3 övladı var.



**Səttar Suliddin oğlu**
**MÖHBALIYEV**

*3 saylı Babək-Kəngərli*
*seçki dairəsi*

1955-ci il oktyabrın 28-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Qıvraq kəndində anadan olmuşdur. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun mühasibat uçotu fakültəsini bitirmişdir. İqtisad elmləri doktorudur. «Şöhrət» ordeni ilə təltif edilmişdir. 5 kitabın müəllifidir. Rus dilini bilir.

1973-cü ildən Bakı şəhərində dəmir-beton məmulatı zavodunda qəlibçi işləmişdir. 1976–1980-ci illərdə Bakı İstehsalat Tikiş Birliyində fəhlə, əmtəəşünas, mühəndis-iqtisadçı, baş mühasibin müavini, 1980–1993-cü illərdə Avtonəqliyyat və Şose Yolları İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin müfəttiş təlimatçısı, şöbə müdiri, sədri vəzifələrində çalışmışdır. 1993-cü ildən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədridir.

Bitərəfdir.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin İqtisadi siyasət daimi komissiyasının üzvüdür. Azərbaycan-Polşa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Fransa, Azərbaycan-Moldova parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 3 övladı var.



**Eldar Rza oğlu**
**İBRAHİMOV**



*4 saylı Naxçıvan şəhər*
*seçki dairəsi*

1945-ci il martın 12-də Naxçıvan Muxtar Respublikası Babək rayonunun Cəhri kəndində anadan olmuşdur. Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun kənd təsərrüfatının mexanikləşdirilməsi fakültəsini və Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu bitirmişdir. İqtisad elmləri namizədi, dosentdir. «Şöhrət» ordeni ilə təltif edilmişdir. Azərbaycan-Özbəkistan Dostluq Cəmiyyətinin sədridir. 4 elmi əsərin və 17 elmi məqalənin müəllifidir. Rus və ingilis dillərini bilir.

1961-ci ildən Naxçıvanda tikinti idarəsində, toxuculuq kombinatında, avtotəmir zavodunda fəhlə, çilingər, mexanik işləmişdir. 1966-cı ildən Texnika Birliyi sistemində böyük və baş mühəndis, 1980-ci ildən Naxçıvan Vilayət Partiya Komitəsində təlimatçı olmuşdur. 1982–1991-ci illərdə Naxçıvan Dövlət Texnika Birliyinin sədri, Dövlət Aqrar-Sənaye Komitəsi sədrinin müavini, 1988-ci ildən Naxçıvan Nazirlər Soveti sədrinin birinci müavini və Dövlət Aqrar-Sənaye Komitəsinin sədri, Vilayət Partiya Komitəsinin büro üzvü, 1991-ci ildən Standartlar və Metrologiya Mərkəzinin direktoru, 1993-cü ildən Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini – Dövlət İqtisadiyyat və Planlaşdırma Komitəsinin sədri vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

On birinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Sovetinin deputatı, on ikinci çağırış Azərbaycan Respublikası Ali Sovetinin deputatı, birinci və ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Aqrar siyasət daimi komissiyasının sədridir. Azərbaycan-Pakistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Avstriya, Azərbaycan-İran, Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

ATƏT-in Parlament Assambleyasında Azərbaycan nümayəndə heyəti rəhbərinin müavinidir.

Evlidir, 3 övladı var.



## Siyavuş Dünyamalı oğlu NOVRUZOV

*5 saylı Şahbuz-Babək seçki dairəsi*

1969-cu il fevralın 17-də Naxçıvan Muxtar Respublikası Babək rayonunun Cəhri kəndində anadan olmuşdur. Bakı Dövlət Universitetinin hüquq fakültəsini və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dövlət və bələdiyyə idarəetməsi fakültəsini bitirmişdir. Hüquq elmləri namizədidir. Rus və ingilis dillərini bilir.

1990-cı ildən «Əlincə» Xeyriyyə Cəmiyyətinin şöbə rəisi, məsul katibi işləmişdir. 1994–1999-cu illərdə Yeni Azərbaycan Partiyası Mərkəzi aparatının işlər müdiri, Təşkilat şöbəsinin müdiri vəzifələrində çalışmış, 1995–2005-ci illərdə Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri olmuşdur.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının və İdarə Heyətinin üzvü, partiyanın icra katibinin müavinidir.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Təhlükəsizlik və müdafiə məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Amerika Birləşmiş Ştatları, Azərbaycan-Çin, Azərbaycan-Mərakeş, Azərbaycan-Pakistan parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

NATO-nun Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 1 övladı var.





## İsmayıl Muxtar oğlu HACIYEV

*6 saylı Culfa-Babək seçki dairəsi*

1951-ci il yanvarın 21-də Naxçıvan Muxtar Respublikası Culfa rayonunun Xanəgah kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsini bitirmişdir. Tarix elmləri doktoru, professordur. Azərbaycan Milli Elmlər Akademiyasının, Nyu-York Elmlər Akademiyasının həqiqi üzvüdür. Azərbaycan MEA Rəyasət Heyətinin üzvüdür. Yusif Məmmədəliyev mükafatı laureatıdır. Dialoq Avrasiya platformasının üzvüdür. 25 kitab, monoqrafiya və dərsliyin, 168 elmi məqalənin müəllifidir. Rus və ingilis dillərini bilir.

1974-cü ildən Culfa rayonunda kənd məktəbində müəllim işləmişdir. 1978–2002-ci illərdə Naxçıvan Dövlət Universitetində müəllim, baş müəllim, dosent, professor, dekan müavini, dekan, prorektor vəzifələrində çalışmışdır. 2003-cü ildən Azərbaycan MEA-nın Naxçıvan Bölməsinin sədri, Naxçıvan Dövlət Universitetinin professorudur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

İkinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı olmuşdur.

Milli Məclisin İnsan hüquqları daimi komissiyasının üzvüdür. Azərbaycan-Avstraliya, Azərbaycan-Çin, Azərbaycan-Rumıniya, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 3 övladı var.



## Əkrəm Nəcəf oğlu NAİBOV-ƏYLİSLİ (Əkrəm Əylisli)

*7 saylı Ordubad-Culfa seçki dairəsi*

1937-ci il dekabrın 6-da Naxçıvan Muxtar Respublikası Ordubad rayonunun Yuxarı Əylis kəndində anadan olmuşdur. Moskvada A.M.Qorki adına Ədəbiyyat İnstitutunu bitirmişdir. Xalq yazıçısı, əməkdar incəsənət xadimidir. «İstiqlal» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. Müxtəlif dillərdə çap olunmuş onlarca povest və hekayənin müəllifidir. Pyesləri bir çox teatrların səhnələrində tamaşaya qoyulmuş, publisistik məqalələri geniş ictimai rəy doğurmuşdur. Dünya ədəbiyyatı klassiklərinin bir sıra əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. Rus dilini bilir.

1962-ci ildən Azərbaycan Dövlət Nəşriyyatında redaktor işləmişdir. 1964-cü ildən «Kommunist» qəzetinin ədəbi işçisi, 1965-ci ildən Azərbaycan Dövlət Nəşriyyatının əməkdaşı, 1968-ci ildən «Gənclik» nəşriyyatının baş redaktoru olmuşdur. 1969-cu ildən «Azərbaycanfilm» kinostudiyasının ssenariçisi, 1971-ci ildən «Mozalan» satirik kinojurnalının baş redaktoru, 1973-cü ildən Azərbaycan Dövlət Kinematoqrafiya Komitəsinin baş redaktoru, 1978–1983-cü illərdə «Azərbaycan» jurnalının baş redaktoru, 1988–1989-cu illərdə Azərbaycan Yazıçılar Birliyinin katibi, 1992–2003-cü illərdə «Yazıçı» nəşriyyatının direktoru vəzifələrində çalışmışdır.

Bitərəfdir.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının üzvüdür. Azərbaycan-Tacikistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan-İspaniya, Azərbaycan-Makedoniya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.





## Arzu Həbib oğlu SƏMƏDBƏYLİ

*8 saylı Binəqədi birinci seçki dairəsi*

1962-ci il mayın 10-da Ermənistan Respublikasının Basarkeçər rayonunun Zərkənd kəndində anadan olmuşdur. Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun sənaye və mülki tikinti fakültəsini bitirmişdir. Rus dilini bilir.

1984-cü ildən Azərbaycan Üzümçülük və Şərabçılıq Komitəsində mühəndis, böyük mühəndis, aparıcı mühəndis, birinci dərəcəli mühəndis işləmişdir. 1992-ci ildən Azərbaycan Xalq Cəbhəsi Partiyasının şöbə müdiri, Azərbaycan Respublikası müdafiə nazirinin baş referenti, 1993–2000-ci illərdə Azərbaycan Xalq Cəbhəsi Partiyasının İnformasiya və mətbuat mərkəzinin direktoru, Təşkilat şöbəsinin müdiri vəzifələrində çalışmışdır. 2004-cü ildən Müsavat Partiyası başqanının müavinidir.

Müsavat Partiyası Ali Məclisinin və Divanının üzvüdür.

Milli Məclisin İnsan hüquqları daimi komissiyasının üzvüdür. Azərbaycan-Almaniya Federativ Respublikası, Azərbaycan-Avstriya, Azərbaycan-Belarus, Azərbaycan-Braziliya, Azərbaycan-Fransa, Azərbaycan-Hindistan, Azərbaycan-Norveç parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.



## Rafael Kamil oğlu CƏBRAYILOV

*9 saylı Binəqədi ikinci seçki dairəsi*

1958-ci il dekabrın 28-də Neftçala rayonunun Qırmızıkənd kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Rus və ingilis dillərini bilir.

1985-ci ildən Sabirabad Rayon Prokurorluğunun müstəntiqi, baş müstəntiqi, 1992-ci ildən Azərbaycan Respublikası Prokurorluğu Ümumi nəzarət idarəsinin prokuroru, rəis müavini, Sosial və iqtisadi sahələrdə qanunların icrasına nəzarət idarəsinin, Mülki sahədə qanunların icrasına nəzarət idarəsinin prokuroru vəzifələrində çalışmışdır. 2001–2002-ci illərdə Dəvəçi rayon prokurorunun, 2005-ci ildə Gədəbəy rayon prokurorunun köməkçisi olmuşdur.

Bitərəfdir.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Böyük Britaniya, Azərbaycan-Fransa, Azərbaycan-Rusiya, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.





## Madər Ələsgər oğlu MUSAYEV

*10 saylı Binəqədi üçüncü seçki dairəsi*

1947-ci il noyabrın 26-da Bakı şəhərində anadan olmuşdur. Moskva Kooperativ İnstitutu Bakı filialının sənaye əmtəəşünaslığı və ticarətin təşkili fakültəsini bitirmişdir. «Şöhrət» ordeni ilə təltif edilmişdir. Rus dilini bilir.

1964-cü ildən Bakı şəhərində satıcı şagirdi, kiçik satıcı, baş satıcı, 1971-ci ildən mağaza müdiri, 1976-cı ildən universamda baş satıcı işləmişdir. 1986–1995-ci illərdə «Bahar» ticarət mərkəzinin müdiri vəzifəsində çalışmışdır.

Bitərəfdir.

On ikinci çağırış Azərbaycan Respublikası Ali Sovetinin, birinci və ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Gürcüstan, Azərbaycan-İran, Azərbaycan-Səudiyyə Ərəbistanı, Azərbaycan-Tacikistan parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 3 övladı var.



## Murtuz Nəcəf oğlu ƏLƏSGƏROV

*11 saylı Qaradağ seçki dairəsi*

1928-ci il sentyabrın 20-də Gəncə şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. Hüquq elmləri doktoru, professor, respublikanın əməkdar hüquqşünasıdır. «İstiqlal» ordeni, «Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu» ilə təltif edilmişdir. MDB-nin «Содружество» ordeninə və Rusiya Federasiyasının «Dostluq» ordeninə layiq görülmüşdür. Kiyev Milli Universitetinin fəxri doktorudur. Beynəlxalq Hüquq Assosiasiyasının və Azərbaycan Hüquqşünaslar İttifaqının üzvüdür. 30-dan çox elmi əsərin, dərsliyin və dərs vəsaitinin, 200-dən çox elmi məqalənin müəllifidir. Rus və ingilis dillərini bilir.

1954-cü ildən Azərbaycan Dövlət Universitetinin Dövlət hüququ kafedrasının baş müəllimi, dosenti, 1957-ci ildən Beynəlxalq hüquq kafedrasının müdiri vəzifələrində çalışmışdır. 1993–1996-cı illərdə Bakı Dövlət Universitetinin rektoru olmuşdur. 1965-ci ildən universitetin Konstitusiya hüququ kafedrasının müdiridir.

Yeni Azərbaycan Partiyası sədrinin müavinidir.

Birinci və ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuş, 1996-cı il oktyabrın 16-dan 2005-ci il dekabrın 2-dək parlamentin Sədri vəzifəsində çalışmışdır.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Fransa, Azərbaycan-Səudiyyə Ərəbistanı, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 3 övladı var.





## Mixail Yuryeviç ZABELİN

*12 saylı Qaradağ-Binəqədi-Yasamal seçki dairəsi*

1946-cı il martın 19-da Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunun hidromeliorasiya fakültəsini, Bakı Ali Partiya Məktəbini və Ümumittifaq Qiyabi Hüquq İnstitutunun sovet quruculuğu fakültəsini bitirmişdir. Azərbaycan Beynəlxalq Universitetinin fəxri professorudur. «Şöhrət» ordeni ilə təltif edilmişdir. Rus pravoslav kilsəsinin Sergiy Radonejski ordeninə, Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının və Moskva şəhəri Hökumətinin fəxri fərmanlarına layiq görülmüşdür. Azərbaycanda Rus İcmasının sədri, «Azərbaycan-Rusiya» cəmiyyətinin vitse-prezidentidir.

1966-cı ildən Bakıda layihə institutunda texnik işləmişdir. 1969-cu ildən Oktyabr Rayon Komsomol Komitəsinin katibi, 1974-cü ildən Lenin Rayon Partiya Komitəsinin, Bakı Şəhər Partiya Komitəsinin təlimatçısı olmuşdur. 1978-ci ildən Azərbaycan KP MK-da təlimatçı, birinci katibin referenti, müfəttiş, 1989-cu ildən Nizami Rayon İcraiyyə Komitəsinin sədri, 1991-ci ildən Azərbaycan Respublikası Ali Soveti Katibliyinin baş mütəxəssisi, daimi komissiyalar şöbəsinin katibi vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının və İdarə Heyətinin üzvüdür.

On ikinci çağırış Azərbaycan Respublikası Ali Sovetinin, birinci və ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Regional məsələlər daimi komissiyasının üzvüdür. Azərbaycan-Almaniya Federativ Respublikası, Azərbaycan-Koreya, Azərbaycan-Litva, Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 1 övladı var.



**Rauf Asif oğlu**
**ƏLİYEV**

*13 saylı Əzizbəyov birinci seçki dairəsi*

1956-cı il mayın 27-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun neft və qaz quyularının qazılması fakültəsini bitirmişdir. Azərbaycan Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvüdür. Rus və ingilis dillərini bilir.

1978-ci ildən Bakı Qaz İstehsalat İdarəsində böyük mühəndis işləmişdir. 1983-cü ildən Azərbaycan Dövlət Peşə Təhsili Komitəsi sədrininköməkçisi, Xalq Təhsili Nazirliyinin idarə rəisi olmuşdur. 1991-ci ildən «İnbak» firması baş müdirinin müavini, 1994-cü ildən Azərbaycan Respublikası gənclər və idman nazirinin köməkçisi, nazirliyin işlər müdiri, 2000–2005-ci illərdə «Neftçi» idman-sağlamlıq mərkəzinin sədri vəzifələrində çalışmışdır. 2008-ci ilin aprel ayından AFFA-nın birinci vitse-prezidentidir.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Sosial siyasət daimi komissiyasının üzvüdür. Azərbaycan-Tailand parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Bolqarıstan, Azərbaycan-İsveçrə, Azərbaycan-Koreya, Azərbaycan-Qırğızıstan, Azərbaycan-Macarıstan parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa İttifaqı – Azərbaycan parlament əməkdaşlığı komitəsinin üzvüdür.

Evlidir, 2 övladı var.



**Mehriban Arif qızı**
**ƏLİYEVA**

*14 saylı Əzizbəyov ikinci seçki dairəsi*



1964-cü il avqustun 26-da Bakı şəhərində anadan olmuşdur. İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir.

Azərbaycan Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvüdür. YUNESKO və İSESKO-nun xoşməramlı səfiridir. Rusiya Federasiyasının «Yüzilliyin mesenatları» Beynəlxalq Xeyriyyə Fondunun «Yaqut xaç» ordeni ilə təltif edilmişdir. Ümumdünya Səhiyyə Təşkilatının mükafatına və «Qızıl ürək» beynəlxalq mükafatına layiq görülmüşdür.

Fəlsəfə elmləri namizədidir. Monoqrafiya, kitablar və elmi məqalələrin müəllifidir. Rus və ingilis dillərini bilir.

1988–1992-ci illərdə Moskva şəhərində Göz Xəstəlikləri Elmi Tədqiqat İnstitutunda çalışmışdır. 1995-ci ildən Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidentidir. 1996-cı ildən «Azərbaycan-İrs» jurnalının baş redaktorudur. 2002-ci ildən Azərbaycan Gimnastika Federasiyasının prezidentidir. 2004-cü ildən Heydər Əliyev Fondunun prezidentidir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının üzvüdür. Azərbaycan-Amerika Birləşmiş Ştatları parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Rusiya, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 3 övladı var.



**Gülər Mikayıl qızı**
**ƏHMƏDOVA**

*15 saylı Yasamal birinci seçki dairəsi*

1965-ci il avqustun 20-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Psixologiya elmləri namizədidir. Rus və ingilis dillərini bilir.

1986-cı ildən Bakıda texniki peşə məktəbində müəllim, orta məktəbdə müəllim, direktor müavini vəzifələrində çalışmışdır. 1994-cü ildən Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin baş təlimatçısı, şöbə müdiri, idarə rəisi, 1996–2000-ci illərdə Azərbaycan Respublikası Uşaq Təşkilatının sədri olmuşdur. Hazırda Bakı Dövlət Universitetinin müəllimidir.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının üzvüdür. Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Çexiya, Azərbaycan-Rusiya, Azərbaycan-Səudiyyə Ərəbistanı, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa İttifaqı – Azərbaycan parlament əməkdaşlığı komitəsinin üzvüdür.

Evlidir, 3 övladı var.





**Abel Məmmədəli oğlu**
**MƏHƏRRƏMOV**

*16 saylı Yasamal ikinci seçki dairəsi*

1950-ci il yanvarın 5-də Ağdam şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin kimya fakültəsini bitirmişdir. Kimya elmləri doktoru, professordur. Əməkdar elm xadimidir. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvüdür. Yusif Məmmədəliyev mükafatı laureatıdır. Rumıniya Respublikasının ali dərəcəli «Komandor» ordeni, İqtisadi Əməkdaşlıq Təşkilatının qızıl medalı ilə təltif edilmişdir. Rumıniya Respublikasının Ovidius Universitetinin və Türkiyə Respublikasının Kırıkkale Universitetinin fəxri doktorudur. 50-dək monoqrafiyanın, dərsliyin və dərs vəsaitinin, 700-dək elmi məqalənin müəllifidir. 37 ixtirası vardır. 30-dək kimya elmləri namizədi və doktoru hazırlamışdır.

1971-ci ildən Ümumittifaq Olefinlər Elmi Tədqiqat İnstitutunda operator, mühəndis işləmişdir. 1976-cı ildən Azərbaycan Dövlət Universitetində baş elmi işçi, baş müəllim, dosent, tədris hissəsinin müdiri, dekan müavini vəzifələrində çalışmışdır. 1991-ci ildən Bakı Dövlət Universitetinin professoru, 1993–1999-cu illərdə kimya fakültəsinin dekanı olmuşdur. 1999-cu ildən Bakı Dövlət Universitetinin rektorudur. 2002–2004-cü illərdə Qara dəniz universitetlər şəbəkəsinin prezidenti olmuşdur.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının və İdarə Heyətinin üzvüdür.

Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Yaponiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Amerika Birləşmiş Ştatları, Azərbaycan-İspaniya, Azərbaycan-Türkmənistan parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.



**Cəmil Poladxan oğlu**
**HƏSƏNLİ**

*18 saylı Nərimanov-Nizami seçki dairəsi*

1952-ci il yanvarın 15-də Biləsuvar rayonunun Ağalıkənd kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. Tarix elmləri doktoru, professordur. Amerika Orta Şərq Araşdırmaları Cəmiyyətinin üzvüdür. Müxtəlif dillərdə çap olunmuş 15 monoqrafiyanın və 100-dən çox elmi məqalənin müəllifidir. Rus və ingilis dillərini bilir.

1975-ci ildən Cəlilabad rayonunun Təzəkənd orta məktəbində müəllim işləmişdir. 1976-cı ildən muzeydə mühazirəçi olmuşdur. 1980-ci ildən Azərbaycan Dövlət Universitetində müəllim, baş müəllim, dosent, kafedra müdiri vəzifələrində çalışmışdır. 1994-cü ildən Bakı Dövlət Universitetinin professorudur.

Bitərəfdir.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Belçika, Azərbaycan-Qazaxıstan, Azərbaycan-Meksika, Azərbaycan-Rumıniya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 3 övladı var.



**Əli Cavad oğlu**
**ƏHMƏDOV**



*19 saylı Nərimanov birinci seçki dairəsi*

1953-cü il yanvarın 27-də Ermənistan Respublikası Basarkeçər rayonunun Dərə kəndində anadan olmuşdur. Moskva Dövlət Tarix-Arxiv İnstitutunun tarix fakültəsini bitirmişdir. Fəlsəfə elmləri namizədi, dosentdir. 1 dərsliyin, 50-dən çox elmi əsərin və məqalənin müəllifidir. Rus dilini bilir.

Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının və Korrupsiyaya qarşı mübarizə üzrə komissiyasının üzvüdür.

1975-ci ildən Baş Arxivlər İdarəsinin baş elmi işçisi, Azərbaycan EA-nın Mərkəzi Elmi Baş Arxivinin müdiri olmuşdur. 1980-ci ildən Azərbaycan Dövlət Universitetində laborant, müəllim, baş müəllim, dosent, kafedra müdiri işləmişdir. 1997-ci ildən Azərbaycan Respublikası Prezidentinin İcra Aparatında şöbə müdirinin müavini vəzifəsində çalışmışdır. 1999–2000-ci illərdə Xətai Rayon İcra Hakimiyyətinin başçısı olmuşdur.

Yeni Azərbaycan Partiyası sədrinin müavini və partiyanın icra katibidir.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Belarus, Azərbaycan-İtaliya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.



## Adil Abış oğlu ƏLİYEV

*20 saylı Nərimanov ikinci seçki dairəsi*

1969-cu il sentyabrın 25-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Maxta kəndində anadan olmuşdur. Leninqrad Ali Hərbi Dənizçilik Akademiyasının şturman gəmiləri fakültəsini və Azərbaycan Polis Akademiyasını bitirmişdir. Azərbaycan Kikboksinq və Maytay Federasiyasının prezidentidir. Rus dilini bilir.

1992-ci ildən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Hərbi Dəniz Qüvvələrində bölmə rəisi, 1994-cü ildən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Nəqliyyatda Baş Polis İdarəsinin Su Nəqliyyatında Polis İdarəsində növbətçi inspektor, əməliyyat müvəkkili, baş əməliyyat müvəkkili, 1998-ci ildən Səbail Rayon Polis İdarəsinin 39-cu polis bölməsində baş əməliyyat müvəkkili, rəis müavini işləmişdir. 1999–2002-ci illərdə Su Nəqliyyatında Polis İdarəsində Xətt polis şöbəsinin rəisi, bölmə inspektoru olmuşdur. 2002-ci ildən Bakı Şəhər Polis İdarəsinin bölmə rəisi, Yasamal Rayon Polis İdarəsinin şöbə rəisi, 2004–2005-ci illərdə Nərimanov Rayon Polis İdarəsi 16-cı polis bölməsinin rəisi vəzifələrində çalışmışdır.

Bitərəfdir.

Milli Məclisin Təhlükəsizlik və müdafiə məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Niderland parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Almaniya Federativ Respublikası, Azərbaycan-Rusiya, Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 3 övladı var.





## Ülvi Zahid oğlu QULİYEV

*21 saylı Nəsimi birinci seçki dairəsi*

1966-cı il sentyabrın 17-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Tibb İnstitutunun əczaçılıq fakültəsini və Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. Əməkdar bədən tərbiyəsi və idman xadimidir. Əməkdar məşqçi, əməkdar idman ustasıdır. Karate idman növü üzrə Avropa və dünya çempionudur. Azərbaycan Karate-do Federasiyaları Assosiasiyasının prezidentidir. Rus və ingilis dillərini bilir.

1988-ci ildən aptekdə provizor, baş provizor, aptek müdiri işləmişdir. 2002-ci ildən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin şöbə rəisi, 2005-ci ildə «Gömrükçü» İdman Sağlamlıq Mərkəzi baş direktorunun müavini vəzifələrində çalışmışdır.

Bitərəfdir.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Meksika parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Böyük Britaniya, Azərbaycan-Ukrayna, Azərbaycan-Yaponiya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa İttifaqı – Azərbaycan parlament əməkdaşlığı komitəsinin və MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 2 övladı var.



**Asim Nazim oğlu**
**MOLLAZADƏ**

*22 saylı Nəsimi ikinci seçki dairəsi*

1953-cü il iyunun 6-da Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini bitirmişdir. Tibb elmləri doktorudur. Bir sıra dərsliklərin və elmi məqalələrin müəllifidir. Bir neçə ixtirası vardır. İngilis və rus dillərini bilir.

1978-ci ildən Bakı şəhərində xəstəxanada həkim işləmişdir. 1984–1987-ci illərdə Həkimləri Təkmilləşdirmə İnstitutunun baş elmi işçisi olmuşdur. 1992-ci ildən Azərbaycan Respublikası Prezidentinin Analitik-informasiya xidmətinin rəhbəri, 1993-cü ildə Azərbaycan Respublikası Prezidenti Aparatının Xarici əlaqələr şöbəsinin müdiri və Prezidentin xüsusi nümayəndəsi vəzifələrində çalışmışdır.

Azərbaycan Demokratik İslahatlar Partiyasının sədridir.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının üzvüdür. Azərbaycan-Makedoniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Almaniya Federativ Respublikası, Azərbaycan-Amerika Birləşmiş Ştatları, Azərbaycan-Böyük Britaniya, Azərbaycan-İsveçrə, Azərbaycan-Polşa, Azərbaycan-Serbiya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 1 övladı var.





**Ziyad Əliabbas oğlu**
**SƏMƏDZADƏ**

*23 saylı Nəsimi-Səbail seçki dairəsi*

1940-cı il iyunun 25-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin iqtisadiyyat fakültəsini bitirmişdir. İqtisad elmləri doktoru, professordur. Azərbaycan Elmlər Akademiyasının akademikidir. Beynəlxalq Menecment Akademiyasının, Beynəlxalq Şərq Neft Akademiyasının akademikidir. Azərbaycan İqtisadçılar İttifaqının sədri, Beynəlxalq İqtisadçılar İttifaqının vitse-prezidentidir. 550 elmi əsərin və məqalənin müəllifidir. Rus dilini bilir.

1961-ci ildən Azərbaycan EA-nın İqtisadiyyat İnstitutunda kiçik elmi işçi, böyük elmi işçi, elmi katib, şöbə müdiri, 1976-cı ildən Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun elmi işlər üzrə prorektoru işləmişdir. 1983–1991-ci illərdə Azərbaycan KP MK-nın İqtisadiyyat şöbəsinin müdiri, 1985-ci ildən Azərbaycan Respublikası Ali Sovetinin İqtisadiyyat məsələləri daimi komissiyasının sədri, Ali Sovet sədrinin birinci müavini, Dövlət Plan Komitəsinin sədri, Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifələrində çalışmışdır. 1992–1994-cü illərdə Avropa Birliyi Komissiyasının Azərbaycana texniki yardımı üzrə Azərbaycan Respublikasının milli koordinatoru olmuşdur. 1999-cu ildən «İqtisadiyyat» qəzetinin təsisçisi və baş redaktorudur.

Bitərəfdir.

Onuncu, on birinci və on ikinci çağırış Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuşdur.

Milli Məclisin İqtisadi siyasət daimi komissiyasının sədridir. Azərbaycan-Sloveniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Belarus, Azərbaycan-Çin, Azərbaycan-İspaniya, Azərbaycan-Portuqaliya, Azərbaycan-Suriya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 3 övladı var.



**Rövnəq İbrahim oğlu ABDULLAYEV**

*24 saylı Nizami birinci seçki dairəsi*

1965-ci il aprelin 3-də Naxçıvan şəhərində anadan olmuşdur. Moskva İnşaat Mühəndisləri İnstitutunun sənaye və mülki tikinti fakültəsini bitirmişdir. Rus dilini bilir.

1989-cu ildən «Neft Daşları» NQÇİ-də, «28 May» NQÇİ-də, «Xəzərdənizneftqaztikinti» Trestinin tikinti-quraşdırma idarəsində mühəndis, şöbə rəisi, baş mühəndis işləmişdir. 1997-ci ildən «Xəzərdənizneftqaztikinti» Trestinin müdiri, 2003-cü ildən Heydər Əliyev adına Bakı neft emalı zavodunun direktoru vəzifələrində çalışmışdır. 2005-ci ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidentidir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Norveç parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Böyük Britaniya, Azərbaycan-Gürcüstan, Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.





**Fazil Qəzənfər oğlu MUSTAFA**

*26 saylı Sabunçu birinci seçki dairəsi*

1965-ci il oktyabrın 19-da Naxçıvan şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. Fəlsəfə elmləri namizədidir. 1 monoqrafiyanın, 11 kitabın və onlarca elmi məqalənin müəllifidir. Rus və ingilis dillərini bilir.

1991-ci ildən Azərbaycan Xalq Cəbhəsi sədrinin müşaviri, 1992–1993-cü illərdə Azərbaycan Respublikası Prezidenti Aparatının Dövlət-hüquq şöbəsinin müdiri, 1998–2001-ci illərdə Azərbaycan Xalq Cəbhəsi Partiyası sədrinin müavini vəzifələrində çalışmışdır.

Böyük Quruluş Partiyasının sədridir.

Milli Məclisin İnsan hüquqları daimi komissiyasının üzvüdür. Azərbaycan-Almaniya Federativ Respublikası, Azərbaycan-İordaniya, Azərbaycan-Malayziya, Azərbaycan-Rumıniya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

ATƏT-in Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 1 övladı var.



## Fərrux Məmmədnəbi oğlu ZEYNALOV

*27 saylı Sabunçu ikinci seçki dairəsi*

1942-ci il mayın 4-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunun texnologiya fakültəsini bitirmişdir. İqtisad elmləri namizədidir. Əməkdar kommunal və əhaliyə məişət xidməti işçisidir. 1 kitabın müəllifidir. Rus dilini bilir.

1959-cu ildən fərdi tikiş fabrikində fəhlə, dərzi köməkçisi, dərzi, biçici, istehsalat rəisi, 1975–1983-cü illərdə fabrikin direktoru işləmişdir. 1983–1987-ci illərdə Bakı Şəhər Əhaliyə Məişət Xidməti İdarəsinin rəisi, 1987–1992-ci illərdə Bakı Trikotaj İstehsalat Birliyinin, «Azəryüngülyeyintisənaye» Birliyinin, «Azərtoxucutəchizatsatış» firmasının baş direktoru olmuşdur. 1992–1997-ci illərdə Azərbaycan Respublikasının material ehtiyatları naziri, 1999–2005-ci illərdə «Güvən» şirkətinin baş direktoru vəzifələrində çalışmışdır.

Bitərəfdir.

On ikinci çağırış Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuşdur.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Belçika, Azərbaycan-İraq, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvü və Büdcəyə nəzarət komissiyası sədrinin müavinidir.

Evlidir, 3 övladı var.





## Eldar Allahyar oğlu QULİYEV

*28 saylı Sabunçu üçüncü seçki dairəsi*

1951-ci il iyulun 26-da Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun ticarətin iqtisadiyyatı fakültəsini bitirmişdir. Azərbaycan Kooperasiya Universitetinin fəxri professorudur. Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının qızıl medalı ilə təltif edilmiş və fəxri professoru seçilmişdir. Beynəlxalq Kooperasiya Alyansının üzvüdür. Rus və ingilis dillərini bilir.

1973-cü ildən Ümumittifaq Əməyin Elmi Təşkili İnstitutunun Azərbaycan filialında iqtisadçı, Bakı Şəhər Sənaye Malları Ticarəti İdarəsində əmtəəşünas işləmişdir. 1976-cı ildən univermaq direktoru, 1983-cü ildən ticarət idarəsinin direktor müavini, direktoru, 1987-ci ildən Bakı Şəhər İstehlak Cəmiyyəti İdarə Heyətinin sədri, 1990-cı ildən «Azərittifaq»ın İdarə Heyəti sədrinin müavini vəzifələrində çalışmışdır. 1993-cü ildən «Azərittifaq»ın İdarə Heyətinin sədridir.

Bitərəfdir.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Aqrar siyasət daimi komissiyası sədrinin müavinidir. Azərbaycan-Koreya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Xorvatiya, Azərbaycan-İtaliya, Azərbaycan-Latviya, Azərbaycan-Polşa, Azərbaycan-Yaponiya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.



## Fuad Rauf oğlu MURADOV

*29 saylı Səbail seçki dairəsi*

1979-cu il iyulun 22-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Neft Akademiyasının ətraf mühit və neft sənayesi fakültəsini bitirmişdir. Magistrdir. 10 elmi əsərin və monoqrafiyanın müəllifidir. İngilis, fransız və rus dillərini bilir.

2001-ci ildən «ACEP» Azərbaycan Ekoloji Layihələr Mərkəzinin meneceri, 2002-ci ildən Avropa Gənclər Forumunun Maliyyə-nəzarət komissiyasının sədri, 2004-cü ildən Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri, 2005-ci ildə İslam Konfransı Təşkilatı Gənclər Forumunun Avropa ölkələri üzrə əlaqələndiricisi vəzifələrində çalışmışdır.

Bitərəfdir.

Milli Məclisin İnsan hüquqları daimi komissiyasının üzvüdür. Azərbaycan-Malayziya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Almaniya Federativ Respublikası, Azərbaycan-Belçika, Azərbaycan-Böyük Britaniya, Azərbaycan-Hindistan, Azərbaycan-Küveyt, Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa İttifaqı – Azərbaycan parlament əməkdaşlığı komitəsi sədrinin müavinidir.

Evlidir, 2 övladı var.





## Anar Camali oğlu MƏMMƏDXANOV

*30 saylı Suraxanı birinci seçki dairəsi*

1970-ci il iyulun 20-də Bakı şəhərində anadan olmuşdur. Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini bitirmişdir. 1992, 1993, 1995-ci illərdə Şən və Hazırcavablar Klubları arasında MDB çempionu, 2000-ci ildə XX əsr çempionu olmuşdur. Avrasiya Radio və Televiziya Akademiyasının üzvüdür. Rus və ingilis dillərini bilir.

1991-ci ildən Bakı Şən və Hazırcavablar Klubunun prezidenti, «Bakılı oğlanlar» komandasının kapitanı olmuşdur.

Bitərəfdir.

Birinci və ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının üzvüdür. Azərbaycan-Estoniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Amerika Birləşmiş Ştatları, Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa İttifaqı – Azərbaycan parlament əməkdaşlığı komitəsinin üzvüdür.

Evlidir, 3 övladı var.



## Əhməd Abdulkərim oğlu VƏLİYEV

*31 saylı Suraxanı ikinci seçki dairəsi*

1946-cı il noyabrın 29-da Qazax rayonunun Alpoud kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini bitirmişdir. Fizika-riyaziyyat elmləri doktoru, professordur. Nyu-York Elmlər Akademiyasının üzvü, Sosial və Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvüdür. 15-dən çox monoqrafiya və dərsliyin, 50-dən çox elmi məqalənin müəllifidir. Rus dilini bilir.

1966-cı ildən Bakı soyuducular zavodunda fəhlə, mühəndis, böyük mühəndis işləmişdir. 1970-ci ildən Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda laborant, baş laborant, laboratoriya müdiri, müəllim, baş müəllim, dosent vəzifələrində çalışmış, 1990-cı ildən Bakı Sənaye-Pedaqoji Texnikumunun direktoru olmuşdur. 1995-ci ildən «Odlar Yurdu» Universitetinin yaradıcısı və təsisçisi, 1997-ci ildən isə həmin universitetin rektorudur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Almaniya Federativ Respublikası, Azərbaycan-Çexiya, Azərbaycan-Gürcüstan, Azərbaycan-Litva, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 3 övladı var.





## Ağacan Qulam oğlu ABİYEV

*32 saylı Suraxanı üçüncü seçki dairəsi*

1937-ci il noyabrın 24-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun bədən tərbiyəsi fakültəsini və Azərbaycan Politexnik İnstitutunun metallurgiya istehsalının avtomatlaşdırılması və kompleks mexanikləşdirilməsi fakültəsini bitirmişdir. Texnika elmləri namizədi, professordur. Əməkdar elm xadimidir. Beynəlxalq Elmlər Akademiyasının üzvüdür. Avropa Beynəlxalq Boks Federasiyasının vitse-prezidenti, Dünya Boks Federasiyası icraiyyə komitəsinin üzvüdür. İdman ustası və beynəlxalq dərəcəli hakimdir. «Şöhrət» ordeni ilə təltif edilmişdir. 1 monoqrafiyanın və 100-dən çox elmi məqalənin müəllifidir. 4 ixtirası vardır. Rus və ingilis dillərini bilir.

1957-ci ildən «Neftçi» İdman Cəmiyyətində məşqçi işləmişdir. 1966-cı ildən Azərbaycan Politexnik İnstitutunun Avtomatika və hesablama texnikası kafedrasının müəllimi olmuşdur. 1971-ci ildən Lipetsk Politexnik İnstitutunun dosenti, kafedra müdiri, 1983-cü ildən Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun Elektrotexnika və elektronika kafedrasının müdiri vəzifələrində çalışmışdır. 1987-ci ildən Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektorudur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyasının üzvü, İntizam komissiyasının sədridir. Azərbaycan-Kuba parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Avstriya, Azərbaycan-Bolqarıstan, Azərbaycan-Polşa, Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.



**Hüseynbala Fazil oğlu**
**MİRƏLƏMOV**

*33 saylı Xətai birinci seçki dairəsi*

1945-ci il iyunun 25-də Lerik rayonunun Nuravud kəndində anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunun sənaye və mülki tikinti fakültəsini bitirmişdir. Texnika elmləri doktoru, dosentdir. Azərbaycan Mühəndislər Akademiyasının müxbir üzvüdür. Rusiya Mədən Akademiyasının üzvüdür. Azərbaycan Yazıçılar Birliyinin və Jurnalistlər Birliyinin üzvüdür. Çoxsaylı elmi və bədii əsərlərin müəllifidir. «Qızıl qələm», «Qızıl dərviş», «Qızıl buta», «Abdulla Şaiq» və «Rəsul Rza» mükafatları laureatıdır. Fransa Sənayeçilər Assosiasiyasının «Napoleon» qızıl medalı ilə təltif edilmiş, MDB ölkələri üzrə 8 dəfə «İlin direktoru» adına layiq görülmüşdür. Rus dilini bilir.

1965-ci ildən «Azərbaycan pioneri» qəzeti redaksiyasının baş ədəbi işçisi olmuşdur. 1971-ci ildən Azərbaycan Qazlaşdırma Komitəsinin 4 saylı Qaz tikinti-quraşdırma idarəsində iş icraçısı, baş mühəndis və rəis işləmişdir. 1986-cı ildən «Azərqaztəmirtikinti» Trestinin rəisi, 1988-ci ildən Maye Qaz İstehsalat Birliyinin rəisi, 1989-cu ildən Azərbaycan Dövlət Yanacaq Komitəsi sədrinin birinci müavini vəzifələrində çalışmışdır. 1992-ci ildən biznes fəaliyyəti ilə məşğul olmuşdur. 1996-cı ildən «Bakqaz» İstehsalat İdarəsi rəisinin müavini, 1998-ci ildən Azərbaycan Qaz Emalı Açıq Səhmdar Cəmiyyətinin sədri olmuşdur. Hazırda ARDNŞ-nin prezidentinin müşaviridir.

Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədridir.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Amerika Birləşmiş Ştatları, Azərbaycan-Böyük Britaniya, Azərbaycan-Litva, Azərbaycan-Rusiya, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 4 övladı var.



**Nəsib Loğman oğlu**
**NƏSİBLİ**

*34 saylı Xətai ikinci seçki dairəsi*



1956-cı il sentyabrın 5-də Gürcüstanın Bolnisi rayonunun Qoşakilsə kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. Tarix elmləri doktorudur. 5 monoqrafiyanın və 100-dən çox elmi məqalənin müəllifidir. İngilis, fars, rus və fransız dillərini bilir.

1978-ci ildən Azərbaycan EA-nın Şərqşünaslıq İnstitutunda baş laborant, kiçik elmi işçi, elmi işçi, 1987-ci ildən İran İslam Respublikasında istilik-elektrik stansiyasının tikintisində tərcüməçi, 1988-ci ildən Azərbaycan EA-nın Şərqşünaslıq İnstitutunda elmi işçi, Tarix İnstitutunda şöbə müdirinin müavini, şöbə müdiri işləmişdir. 1992–1994-cü illərdə Azərbaycan Respublikasının İran İslam Respublikasında səfiri olmuşdur. 1994–2002-ci illərdə Bakı Asiya Universitetində dosent, Xəzər Universitetində professor, kafedra müdiri, dekan vəzifələrində çalışmışdır. 1997–1998 və 2002–2003-cü illərdə ABŞ-ın Çikaqo və Con Hopkins universitetlərində işləmişdir.

Müsavat Partiyasının üzvüdür.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının üzvüdür. Azərbaycan-Amerika Birləşmiş Ştatları, Azərbaycan-Böyük Britaniya, Azərbaycan-Gürcüstan, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.



**İqbal Fehruz oğlu**
**AĞAZADƏ**

*35 saylı Xətai üçüncü seçki dairəsi*

1968-ci il sentyabrın 18-də Füzuli rayonunun Merdinli kəndində anadan olmuşdur. Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsini və Kiyev Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. Rus, fars və ingilis dillərini bilir.

1994-cü ildən Bakı Dövlət Universitetində, 1995–1999-cu illərdə Bakı Asiya Universitetində müəllim işləmişdir.

Azərbaycan Ümid Partiyasının sədridir.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin İnsan hüquqları daimi komissiyasının üzvüdür. Azərbaycan-Braziliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-İordaniya, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.





**Səməd İsmayıl oğlu**
**SEYİDOV**

*36 saylı Xətai dördüncü seçki dairəsi*

1964-cü il yanvarın 18-də Bakı şəhərində anadan olmuşdur. Leninqrad Dövlət Universitetinin psixologiya fakültəsini bitirmişdir. Psixologiya elmləri doktoru, professordur. Beynəlxalq Psixoloqlar Assosiasiyasının üzvüdür. İngilis və rus dillərini bilir.

1986-cı ildən Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunda laborant, baş laborant, müəllim, baş müəllim, tədris işləri üzrə prorektor vəzifələrində çalışmışdır. 2000-ci ildən Azərbaycan Dövlət Dillər Universitetinin rektorudur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının sədridir. Azərbaycan-Çexiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Amerika Birləşmiş Ştatları, Azərbaycan-Qazaxıstan, Azərbaycan-Səudiyyə Ərəbistanı parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəridir.

Evlidir, 2 övladı var.



**Aydın Abbas oğlu**
**ABBASOV**

*37 saylı Nizami birinci (Gəncə)*
*seçki dairəsi*

1976-cı il avqustun 26-da Gəncə şəhərində anadan olmuşdur. Londondakı Amerika kollecinin biznesi idarəetmə fakültəsini və Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. Rus və ingilis dillərini bilir.

1998–2005-ci illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xarici Sərmayələr İdarəsində Qazın satışı və marketinqi şöbəsinin rəisi vəzifəsində çalışmışdır.

Bitərəfdir.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının üzvüdür. Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan-Böyük Britaniya, Azərbaycan-İndoneziya, Azərbaycan-Küveyt, Azərbaycan-Latviya, Azərbaycan-Lüksemburq, Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 1 övladı var.



**Asəf Hacı oğlu**
**HACIYEV**



*38 saylı Nizami ikinci (Gəncə)*
*seçki dairəsi*

1951-ci il mayın 29-da Gəncə şəhərində anadan olmuşdur. Moskva Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini bitirmişdir. Fizika-riyaziyyat elmləri doktoru, professordur. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvüdür. Bernulli adına Ümumdünya Ehtimal Nəzəriyyəsi və Riyazi Statistika Cəmiyyətinin, Beynəlxalq Statistika İnstitutunun və Üçüncü Dünya Akademiyasının üzvüdür. 2 kitabın və 100-dək elmi məqalənin müəllifidir. Rus və ingilis dillərini bilir.

1979-cu ildən Azərbaycan EA-nın Kibernetika İnstitutunun baş elmi işçisi olmuşdur. 1990-cı ildən həmin institutun sektor rəhbəri işləmiş, 1993-cü ildən Türkiyədə «Boğaziçi» Universitetinin professoru vəzifəsində çalışmışdır. Hazırda Azərbaycan MEA-nın Kibernetika İnstitutunun laboratoriya rəhbəri və Bakı Dövlət Universitetinin Ehtimal nəzəriyyəsi və riyazi statistika kafedrasının müdiridir.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Birinci və ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Böyük Britaniya, Azərbaycan-Çexiya, Azərbaycan-Hindistan, Azərbaycan-İndoneziya, Azərbaycan-İran, Azərbaycan-İsveçrə, Azərbaycan-Kanada, Azərbaycan-Malayziya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisində Azərbaycan nümayəndə heyətinin rəhbəri və Parlament Məclisi Sədrinin müavinidir.

Evlidir, 3 övladı var.



## Vidadi Yunis oğlu MƏMMƏDOV

*39 saylı Kəpəz birinci (Gəncə) seçki dairəsi*

1947-ci il iyulun 1-də Şəmkir rayonunun Qapanlı kəndində anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunun mexanika fakültəsini bitirmişdir. Texnika elmləri namizədi, professordur. Nyu-York Elmlər Akademiyasının, Beynəlxalq Ekologiya və Həyat Fəaliyyətinin Təhlükəsizliyi Akademiyasının həqiqi üzvü, Kutaisi Dövlət Texniki Universitetinin fəxri doktorudur. 60-dan çox elmi əsərin və dərs vəsaitinin müəllifidir. Rus və ingilis dillərini bilir.

1969-cu ildən Qazanbulaq teatr avadanlığı zavodunda şöbə rəisi, 1970-ci ildən Gəncədə Baza İnşaat Texnikumunun müəllimi, axşam şöbəsinin müdiri işləmişdir. 1980-ci ildən Azərbaycan Texnologiya İnstitutunda assistent, baş müəllim, dosent, hazırlıq şöbəsinin müdiri, mexanika fakültəsinin dekanı, prorektor, rektor, kafedra müdiri, 2000-ci ildən Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Xarici Turizm Şurası sədrinin müavini vəzifələrində çalışmışdır. 2003–2005-ci illərdə «Azərpoçt» Dövlət Müəssisəsinin Gəncə poçtamtı filialının rəisi olmuşdur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Aqrar siyasət daimi komissiyasının üzvüdür. Azərbaycan-Finlandiya, Azərbaycan-İsveç, Azərbaycan-Qazaxıstan, Azərbaycan-Qətər parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

GUAM-ın Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 3 övladı var.





## Musa İsa oğlu QULİYEV (Musa Urud)

*40 saylı Kəpəz ikinci (Gəncə) seçki dairəsi*

1961-ci il noyabrın 25-də Ermənistan Respublikası Sisian rayonunun Urud kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dövlət və bələdiyyə idarəetməsi fakültəsini bitirmişdir. Tibb elmləri namizədidir. Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin üzvüdür. Prezident təqaüdçüsüdür. «Nizami», «Aydın», «Araz» və Yusif Məmmədəliyev ədəbi mükafatları laureatıdır. 9 kitabın və 150-dən çox məqalənin müəllifidir. Rus və ingilis dillərini bilir.

1984-cü ildən Gəncə şəhərində narkoloji dispanserdə həkim-narkoloq, 1990-cı ildən Bakıda poliklinikada həkim-nevropatoloq, 1993-cü ildən Yasamal rayon Həkim-əmək ekspert komissiyasında ekspert-nevropatoloq, 1994–2000-ci illərdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində şöbə müdiri, idarə rəisi vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Sosial siyasət daimi komissiyası sədrinin müavinidir. Milli Məclis yanında Toponimiya komissiyasının üzvüdür. Azərbaycan-Əlcəzair parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Braziliya, Azərbaycan-Çexiya, Azərbaycan-Qazaxıstan, Azərbaycan-Litva, Azərbaycan-Pakistan parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisində Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 3 övladı var.



**İkram İsrail oğlu**
**İSRAFİL**

*41 saylı Sumqayıt birinci*
*seçki dairəsi*

1964-cü il yanvarın 16-da Şəki rayonunun Bideyiz kəndində anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunun mexanika fakültəsini bitirmişdir. Rus dilini bilir.

1984-cü ildən M.Əzizbəyov adına Kimya Sənaye İstehsalat Birliyində növbə ustası və gənclər birliyinin sədri işləmişdir. 1991-ci ildən Sumqayıt aşqarlar zavodunun, «Azadlıq» kiçik müəssisəsinin sex rəisi, «Xəzər» Səhmdar Cəmiyyətinin şöbə rəisinin müavini, 1993-cü ildən «Qalayçı» firmasının direktoru vəzifələrində çalışmışdır. 1996–2002-ci illərdə Sumqayıt şəhərində orta məktəbdə direktor müavini olmuşdur.

Müsavat Partiyasının üzvüdür.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Amerika Birləşmiş Ştatları, Azərbaycan-Böyük Britaniya, Azərbaycan-Braziliya, Azərbaycan-Norveç parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 3 övladı var.





**Məcid Zahid oğlu**
**KƏRİMOV**

*42 saylı Sumqayıt ikinci*
*seçki dairəsi*

1958-ci il dekabrın 16-da Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Neft və Kimya İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir. Texnika elmləri doktoru, professordur. Əməkdar elm xadimidir. Rus və ingilis dillərini bilir.

1980-ci ildən neft-qaz və neft-qaz qurğuları və avadanlığı sahəsində müxtəlif vəzifələrdə işləmişdir. 1999-cu ildən ARDNŞ-nin «Dənizneftqazlayihə» Dövlət Elmi Tədqiqat və Layihə İnstitutunun direktoru, 2001-ci ildən Azərbaycan Respublikasının yanacaq və energetika naziri, 2004-cü ildən Azərbaycan Respublikasının sənaye və energetika naziri vəzifələrində çalışmışdır. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə «Azəri-Çıraq-Günəşli», «Şahdəniz», «Bakı-Tbilisi-Ceyhan» və «Bakı-Tbilisi-Ərzurum» layihələrinin həyata keçirilməsi üzrə komissiyanın sədri olmuşdur. «Azərbaycan Respublikasının yanacaq-energetika kompleksinin inkişafı (2005–2015-ci illər) üzrə Dövlət Proqramı»nın və «Azərbaycan Respublikasının alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı»nın işlənib hazırlanmasına rəhbərlik etmişdir. 2005-ci ildən «Azərikimya» Dövlət Şirkətinin prezidentidir.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Almaniya Federativ Respublikası, Azərbaycan-Çexiya, Azərbaycan-Fransa, Azərbaycan-Səudiyyə Ərəbistanı parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.



## Nizami Zaman oğlu İSGƏNDƏROV

*43 saylı Sumqayıt üçüncü seçki dairəsi*

1965-ci il noyabrın 6-da Sumqayıt şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin fizika və hüquq fakültələrini bitirmişdir. Rus dilini bilir.

1986-cı ildən «Azərcihazelektrik» İdarəsində mühəndis işləmişdir. 1989-cu ildən Binəqədi Rayon İcraiyyə Komitəsində İnzibati komissiyanın katibi, şöbə müfəttişi olmuşdur. 1992-ci ildən Binəqədi Rayon İcra Hakimiyyətində şöbə müdiri, Bakı kimya əczaçılıq zavodunda şöbə rəisi, Sumqayıt şəhərində univermağın baş administratoru, 1998–2005-ci illərdə «Sumqayıt Ticarət Mərkəzi» Açıq Səhmdar Cəmiyyəti İdarə Heyəti sədrinin müavini vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan-Böyük Britaniya, Azərbaycan-Çernoqoriya, Azərbaycan-Küveyt, Azərbaycan-Özbəkistan, Azərbaycan-Rumıniya, Azərbaycan-Sloveniya, Azərbaycan-Türkiyə, Azərbaycan-Ukrayna, Azərbaycan-Yunanıstan parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 3 övladı var.





## Baba Əli oğlu TAĞIYEV

*44 saylı Sumqayıt-Abşeron seçki dairəsi*

1961-ci il iyulun 18-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Muğanlı kəndində anadan olmuşdur. Xarkov Kənd Təsərrüfatı İnstitutunun bitki mühafizəsi fakültəsini bitirmişdir. Rus və fransız dillərini bilir.

1985-ci ildən Abşeron rayonunda bioloji laboratoriyanın aqronomu, baş aqronomu, direktor müavini olmuşdur. 1990-cı ildən Respublika Mərkəzi Laboratoriyasının direktor müavini, baş direktoru vəzifələrində çalışmışdır. 1989-cu ildə özəl sahibkarlıq fəaliyyətinə başlamışdır. 1999-cu ildən «Tağıyev» şirkətlər qrupunun qurucusu və təsisçisidir.

Bitərəfdir.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Belçika, Azərbaycan-Fransa, Azərbaycan-Lüksemburq, Azərbaycan-Türkiyə, Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 4 övladı var.



**Oqtay Sabir oğlu**
**ƏSƏDOV**

*45 saylı Abşeron seçki dairəsi*

2005-ci il dekabrın 2-dən Azərbaycan Respublikası Milli Məclisinin Sədridir.

1955-ci il yanvarın 3-də Ermənistan Respublikası Qafan rayonunun Şəhərcik kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun maşınqayırma texnologiyası fakültəsini bitirmişdir. Beynəlxalq Su Assosiasiyasının üzvüdür. Rus və ingilis dillərini bilir.

1976-cı ildən Bakı Məişət Kondisionerləri zavodunda usta köməkçisi, usta işləmişdir. 1979-cu ildən Azərbaycan Baş Quraşdırma və Xüsusi İnşaat İşləri İdarəsinin böyük mühəndisi, 1981-ci ildən Azərbaycan Baş Quraşdırma və Xüsusi Tikinti İşləri Nazirliyinin «Azərsantexquraşdırma» Trestinin böyük texnoloqu, idarə rəisi, birlik rəisi olmuşdur. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti vəzifəsində çalışmışdır.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

MDB-nin Parlamentlərarası Assambleyasında və Türkdilli Dövlətlərin Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətlərinin rəhbəridir.

Evlidir, 2 övladı var.



**Azay Əjdər oğlu**
**QULİYEV**



*46 saylı Əli Bayramlı seçki dairəsi*

1971-ci il iyunun 23-də Ermənistan Respublikası Sisian rayonunun Vağudi kəndində anadan olmuşdur. Bakı Dövlət Universitetinin tarix fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Rus və ingilis dillərini bilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Əfv məsələləri komissiyasının, Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar dövlət komissiyasının üzvüdür.

1993-cü ildən Azərbaycan Gənclərinin Sülh və Təhlükəsizlik İttifaqı ictimai birliyinin sədri, 1998-ci ildən Azərbaycan Gənclər Təşkilatları Milli Şurasının sədri, 1999–2008-ci illərdə Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti olmuşdur. Hazırda Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədridir.

Bitərəfdir.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Rumıniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Cənubi Afrika Respublikası, Azərbaycan-Fransa, Azərbaycan-Gürcüstan, Azərbaycan-İsveçrə, Azərbaycan-Sloveniya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

ATƏT-in Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 2 övladı var.



## Aydın Böyükkişi oğlu MİRZƏZADƏ

*47 saylı Mingəçevir seçki dairəsi*

1957-ci il iyulun 2-də Mingəçevir şəhərində anadan olmuşdur. Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun inşaat fakültəsini və Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu bitirmişdir. Siyasi elmlər namizədidir. 4 kitabın müəllifidir. Rus və ingilis dillərini bilir.

1982-ci ildən Mingəçevir şəhərində Azərbaycan DRES tikintisi gənclər qərargahının rəisi, siyasi maarif kabinetinin müdiri, 1992-ci ildən «Səda» qəzetinin müxbiri, Mingəçevir Quraşdırma İdarəsinin şöbə rəisi işləmişdir. 1993-cü ildən Mingəçevir Şəhər İcra Hakimiyyəti başçısının köməkçisi, müavini, 1997–2000-ci illərdə Azərbaycan Respublikası Prezidenti İcra Aparatının İctimai-siyasi şöbəsinin sektor müdiri vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Təhlükəsizlik və müdafiə məsələləri daimi komissiyası sədrinin müavinidir. Azərbaycan-Braziliya, Azərbaycan-Macarıstan, Azərbaycan-Finlandiya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 2 övladı var.



## İlham Kazım oğlu MƏMMƏDOV

*48 saylı Yevlax seçki dairəsi*



1962-ci il yanvarın 13-də Yevlax şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə işi fakültəsini bitirmişdir. Rus dilini bilir.

1986-cı ildən Yevlax Şəhər Mərkəzi Xəstəxanasında sahə həkimi, həkim-endoskopist, şöbə müdiri, həkim-qastroenteroloq, 2001-ci ildən Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasında böyük həkim vəzifələrində çalışmışdır. 2004-cü ildən Yevlax Şəhər Mərkəzi Xəstəxanasının baş həkimidir.

Yeni Azərbaycan Partiyası Yevlax rayon təşkilatının sədridir.

Milli Məclisin Sosial siyasət daimi komissiyasının üzvüdür. Azərbaycan-İraq parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Avstraliya, Azərbaycan-Cənubi Afrika Respublikası, Azərbaycan-Xorvatiya, Azərbaycan-İsveç, Azərbaycan-Kuba parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 1 övladı var.



## Əli Məhəmməd oğlu HÜSEYNOV

*49 saylı Yevlax-Mingəçevir seçki dairəsi*

1968-ci il oktyabrın 8-də Bakı şəhərində anadan olmuşdur. Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. Hüquq elmləri namizədidir. Rus və ingilis dillərini bilir.

Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurasının və Korrupsiyaya qarşı mübarizə üzrə komissiyasının üzvüdür.

1991-ci ildən Azərbaycan Respublikasının Ali Məhkəməsində iclas katibi, məsləhətçi, sədrin köməkçisi işləmişdir. 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin İcra Aparatında mütəxəssis vəzifəsində çalışmış, 1996–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisi Sədrinin köməkçisi olmuşdur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu məsələləri daimi komissiyasının sədridir. Azərbaycan-Bolqarıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Böyük Britaniya, Azərbaycan-Estoniya, Azərbaycan-Əlcəzair, Azərbaycan-Ukrayna, Azərbaycan-Yaponiya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyəti rəhbərinin müavini, MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 2 övladı var.



## Zeynəb Yəhya qızı XANLAROVA

*50 saylı Qobustan-Xızı-Quba seçki dairəsi*



1936-cı il dekabrın 28-də Bakı şəhərində anadan olmuşdur. Bakı Məktəbəqədər tərbiyə pedaqoji məktəbini və Asəf Zeynallı adına Musiqi məktəbini bitirmişdir. SSRİ-nin və Azərbaycanın xalq artistidir. Azərbaycan Dövlət mükafatı laureatı, Ümumittifaq «Qızıl val» mükafatı laureatıdır. «İstiqlal» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. Əlcəzairin və Özbəkistanın fəxri vətəndaşıdır. Əfqanıstanın və Yəmənin yüksək dövlət mükafatlarına layiq görülmüşdür. Rus dilini bilir.

1958-ci ildən Azərbaycan Radio və Televiziya Verilişləri Komitəsinin solisti, 1961-ci ildən M.F.Axundov adına Akademik Opera və Balet Teatrının baş solisti olmuşdur.

Bitərəfdir.

On birinci və on ikinci çağırış Azərbaycan Respublikası Ali Sovetinin deputatı, birinci və ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Mədəniyyət məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Hindistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Mərakeş, Azərbaycan-Misir, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

2 övladı var.



**Xəlilbəy Günəş oğlu**
**GÜNƏŞOV**

*51 saylı Qusar seçki dairəsi*

1957-ci il mayın 2-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun tikinti məmulatı və konstruksiyalarının istehsalı fakültəsini bitirmişdir. Rus dilini bilir.

1979-cu ildən Rostov Mədən-Tikinti İdarəsinin Şaxtinsk tikinti materialları zavodunda usta işləmişdir. 1982-ci ildən Bakı Şəhər İcraiyyə Komitəsi Əsaslı Tikinti İdarəsinin mühəndisi, şöbə rəisi, Müəssisədənkənar Ekspertiza İdarəsinin şöbə rəisi, rəisi olmuşdur. 1992-ci ildən Bakı Şəhər İcra Hakimiyyətinin Əsaslı Tikinti İdarəsinin rəisi, Bakı Tikinti və Şəhərin İnkişafı Departamentinin sədri, 2004–2005-ci illərdə Bakı Tikinti və Şəhərin İnkişafı Şirkətinin direktoru vəzifələrində çalışmışdır.

Bitərəfdir.

Milli Məclisin İqtisadi siyasət daimi komissiyasının üzvüdür. Azərbaycan-İsveç parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-İtaliya, Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir.



**Vahid Qazməmməd oğlu**
**ƏHMƏDOV**



*52 saylı Quba seçki dairəsi*

1947-ci il aprelin 2-də Quba rayonunun Qonaqkənd qəsəbəsində anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunun metallurgiya istehsalının avtomatlaşdırılması fakültəsini və Bonn Menecment İnstitutunu bitirmişdir. Texnika doktorudur. Əməkdar mühəndisdir. Azərbaycan Sənayeçilər və Sahibkarlar İttifaqının sədridir. Onlarca kitabın və məqalənin müəllifidir. 1 ixtirası vardır. Rus və ingilis dillərini bilir.

1967-ci ildən leytenant Şmidt adına Bakı maşınqayırma zavodunda fəhlə, tokar, usta, böyük mühəndis, növbə rəisi, sahə rəisi, sex rəisinin müavini işləmişdir. 1977-ci ildən Bakı radio zavodunda sex rəisi, istehsalat rəisi, 1981-ci ildən Bakı Dəzgahqayırma İstehsalat Birliyində baş mühəndis olmuşdur. 1983-cü ildən «Bakı fəhləsi» zavodunun direktoru, 1986-cı ildən Keşlə maşınqayırma zavodunun direktoru, 1988-ci ildən «Bakneftmaş» İstehsalat Birliyinin baş direktoru vəzifələrində çalışmışdır. 1992–1993-cü illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini olmuşdur.

On ikinci çağırış Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuşdur.

Bitərəfdir.

Milli Məclisin İqtisadi siyasət daimi komissiyasının üzvüdür. Azərbaycan-Almaniya Federativ Respublikası, Azərbaycan-Xorvatiya, Azərbaycan-Rusiya, Azərbaycan-Türkmənistan, Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.



**Yevda Sasunoviç**
**ABRAMOV**

*53 saylı Quba-Qusar*
*seçki dairəsi*

1948-ci il iyunun 12-də Quba rayonunun Qırmızı Sloboda qəsəbəsində anadan olmuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsini bitirmişdir. Rus, türk və fars dillərini bilir.

1971-ci ildən Quba rayonunda kənd orta məktəbində müəllim, direktor müavini işləmişdir. 1987-ci ildən Qırmızı Sloboda qəsəbəsində İcraiyyə Komitəsinin sədri, orta məktəb müəllimi, 2000-ci ildən bələdiyyə sədri vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin İnsan hüquqları daimi komissiyası sədrinin müavinidir. Azərbaycan-İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Argentina, Azərbaycan-Kuba, Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 4 övladı var.



**Tahir Süleyman oğlu**
**SÜLEYMANOV**



*54 saylı Dəvəçi-Siyəzən*
*seçki dairəsi*

1948-ci il sentyabrın 24-də Dəvəçi rayonunun Sumaqova-Qazma kəndində anadan olmuşdur. Moskva Yeyinti Sənayesi İnstitutunun taxıl məhsullarının saxlanması fakültəsini bitirmişdir. «Şöhrət» ordeni ilə təltif edilmişdir. Hacı Zeynalabdin Tağıyev və «Qızıl buta» mükafatlarına layiq görülmüşdür. Rus dilini bilir.

1968-ci ildən Dəvəçidə mağazada satıcı, müdir, 1981-ci ildən «Azərittifaq»ın Dəvəçi tədarük kontorunun direktoru işləmişdir. 1982-ci ildən Pirəbədil xalça fabrikinin iqtisadçısı, direktoru, 1984-cü ildən Xaçmaz Taxıl Məhsulları Kombinatı Dəvəçi filialının anbardarı, Siyəzən şəhərində çörəkbişirmə sexinin ustası, Dəvəçidə mexanikləşdirilmiş çörəkxananın direktoru vəzifələrində çalışmışdır. 1994–2000-ci illərdə Dəvəçi Taxıl Məhsulları Kombinatının direktoru olmuşdur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Aqrar siyasət daimi komissiyasının üzvüdür. Azərbaycan-Belarus parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Böyük Britaniya, Azərbaycan-İsrail, Azərbaycan-Qazaxıstan, Azərbaycan-Niderland parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

NATO-nun Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 2 övladı var.



**Lalə Gülbaba qızı**
**ABBASOVA**

*55 saylı Xaçmaz şəhər seçki dairəsi*

1955-ci il iyunun 9-da Xaçmaz şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. «Qadın və tərəqqi» ictimai birliyinin sədridir. Həsən bəy Zərdabi mükafatı laureatıdır. 4 ensiklopedik toplunun və 1 bədii kitabın müəllifidir. 12 mahnı bəstələmişdir. Rus dilini bilir.

1972-ci ildən Xaçmaz şəhərində uşaq bağçasında musiqi müəllimi işləmişdir. 1977-ci ildən «Вышка» qəzetinin korrektoru, baş redaktor müavini, 1998-ci ildən «Ваш дом» jurnalının redaktoru vəzifələrində çalışmışdır. 2000–2005-ci illərdə «Мир женщин» qəzetinin baş redaktoru olmuşdur. Hazırda həmin qəzetin təsisçisidir.

Bitərəfdir.

Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Albaniya, Azərbaycan-Avstriya, Azərbaycan-Bolqarıstan, Azərbaycan-Cənubi Afrika Respublikası, Azərbaycan-İspaniya, Azərbaycan-İsrail, Azərbaycan-Özbəkistan, Azərbaycan-Səudiyyə Ərəbistanı parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

3 övladı var.





**Nizami Mənaf oğlu**
**XUDİYEV**

*56 saylı Xaçmaz kənd seçki dairəsi*

1949-cu il aprelin 1-də Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda anadan olmuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Filologiya elmləri doktoru, professordur. Lütfizadə adına Beynəlxalq Müasir Elmlər Akademiyasının və Nyu-York Elmlər Akademiyasının həqiqi üzvüdür. Azərbaycan Yazıçılar Birliyinin və Jurnalistlər Birliyinin üzvüdür. Əməkdar elm xadimi, «Qızıl qələm» mükafatı laureatıdır. 60-dan çox kitabın, 300-dən artıq elmi məqalənin müəllifidir. Rus və alman dillərini bilir.

1970-ci ildən Azərbaycan Dövlət Pedaqoji İnstitutunda müəllim, baş müəllim, dosent, professor, həmkarlar ittifaqı komitəsinin sədri, birinci prorektor işləmişdir. 1994–1996-cı illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru olmuşdur. 1996-cı ildən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri, 2005–2006-cı illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin sədri vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının və İdarə Heyətinin üzvüdür.

Birinci və ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyasının üzvüdür. Milli Məclis yanında Toponimiya komissiyasının üzvüdür. Azərbaycan-Amerika Birləşmiş Ştatları, Azərbaycan-Belarus, Azərbaycan-Böyük Britaniya, Azərbaycan-Hindistan, Azərbaycan-Pakistan, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 3 övladı var.



**Fərhad Həsən oğlu**
**QƏRİBOV**

*57 saylı Kürdəmir seçki dairəsi*

1952-ci il iyunun 20-də Kürdəmir rayonunun Muradxan kəndində anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunun hidromeliorasiya fakültəsini bitirmişdir. 1 kitabın müəllifidir. Rus dilini bilir.

1974-cü ildən Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Nazirliyi Şirvan qışlaqlarının su ilə təminatı sisteminin istismarı idarəsində mühəndis, 1977-ci ildən «Muğanmeliorasiyasutikinti» Trestinin tikinti-quraşdırma idarəsində usta, iş icraçısı, böyük iş icraçısı, rəis müavini, rəis, 1985-ci ildən «Kəndtikinti» Trestinin tikinti-quraşdırma sahəsində iş icraçısı, baş mühəndis vəzifələrində çalışmışdır. 1986-cı ildən «Azərneft» Birliyinin «Azərneftlayihətikinti» Birliyində tikinti-quraşdırma idarəsinin rəisi, mənzil-kommunal kontorunun rəis müavini, 1989-cu ildən Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Nazirliyində mexanikləşdirilmiş səyyar dəstənin baş mühəndisi, rəisi, 1991-ci ildən tikinti-quraşdırma idarəsinin rəisi, 1995-ci ildən «Azərneftlayihətikinti» Birliyinin rəisi, «Neftlayihətikinti» Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri olmuşdur. 2002–2004-cü illərdə «Debüt» Səhmdar Kommersiya Bankının məsləhətçi müşaviri işləmişdir. 2004–2005-ci illərdə «Azəri-Holdinq» maliyyə-sənaye qrupuna rəhbərlik etmişdir.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Qazaxıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Əlcəzair, Azərbaycan-Mərakeş, Azərbaycan-Suriya, Azərbaycan-Tailand, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 5 övladı var.



**Rafael Baba oğlu**
**HÜSEYNOV**



*58 saylı Hacıqabul-Kürdəmir seçki dairəsi*

1954-cü il avqustun 12-də Kürdəmir şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirmişdir. Filologiya elmləri doktoru, professordur. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvüdür. Əməkdar incəsənət xadimidir. Azərbaycan Yazıçılar Birliyinin və Teatr Xadimləri İttifaqının üzvüdür. 7 monoqrafiyanın, 6 dərsliyin və dərs vəsaitinin, 300 elmi araşdırmanın, 500-dən çox publisistik məqalənin, 3 tammetrajlı sənədli-publisistik filmin ssenarisinin, 200-dən çox televiziya və radio verilişinin və proqramının müəllifidir. İngilis, fars və rus dillərini bilir.

1976-cı ildən Azərbaycan EA-nın Fəlsəfə və Hüquq İnstitutunun baş laborantı, 1978-ci ildən Şərqşünaslıq İnstitutunun baş laborantı, kiçik elmi işçisi, baş elmi işçisi, 1988-ci ildən Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Milli Muzeyinin şöbə müdiri vəzifələrində çalışmışdır. 1993-cü ildən Azərbaycan MEA-nın Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Milli Muzeyinin direktorudur.

Bitərəfdir.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Mədəniyyət məsələləri daimi komissiyası sədrinin müavinidir. Milli Məclis yanında Toponimiya komissiyasının üzvüdür. Azərbaycan-Bosniya və Herseqovina, Azərbaycan-İspaniya, Azərbaycan-İsveç, Azərbaycan-İtaliya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvü, AŞPA-nın Hüquq məsələləri və insan hüquqları komitəsinin sədr müavinidir.

Evlidir, 1 övladı var.



**Əkrəm Kamal oğlu**
**ABDULLAYEV**

*59 saylı Salyan*
*seçki dairəsi*

1975-ci il iyunun 23-də Salyan şəhərində anadan olmuşdur. Bakı Dövlət Universitetinin tarix fakültəsini və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dövlət və bələdiyyə idarəetməsi fakültəsini bitirmişdir. Rus və ingilis dillərini bilir.

1996–2005-ci illərdə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyində təlimatçı, baş təlimatçı, sektor müdiri və şöbə rəisi vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Sosial siyasət daimi komissiyasının üzvüdür. Azərbaycan-Küveyt parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Böyük Britaniya, Azərbaycan-Qətər, Azərbaycan-Özbəkistan, Azərbaycan-Tacikistan, Azərbaycan-Tailand, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 2 övladı var.



**Fəzail Rəhim oğlu**
**AĞAMALI**



*60 saylı Salyan-Neftçala*
*seçki dairəsi*

1947-ci il avqustun 26-da Ermənistan Respublikası Sisian rayonunun Qızıl Şəfəq (Şıxlar) kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. Tarix elmləri doktoru, professordur. 3 monoqrafiyanın və 50-dən çox elmi məqalənin müəllifidir. Rus dilini bilir.

1971-ci ildən Naxçıvan şəhərində orta məktəb müəllimi, Naxçıvan Dövlət Universitetinin müəllimi, baş müəllimi işləmişdir. 1983-cü ildən Azərbaycan Texnologiya İnstitutunda kafedra müdiri, 1988-ci ildən Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda, 1991-ci ildən Azərbaycan Əmtəəşünaslıq İnstitutunda, 2000-ci ildən Azərbaycan İqtisad Universitetində dosent və professor vəzifələrində çalışmışdır. 1992-ci ildə Azərbaycan Respublikası sosial təminat nazirinin müavini, 1993–1994-cü illərdə əmək və əhalinin sosial müdafiəsi nazirinin birinci müavini və naziri əvəzi olmuşdur.

Ana Vətən Partiyasının sədridir.

Birinci və ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-İspaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Bolqarıstan, Azərbaycan-İsveç, Azərbaycan-Sloveniya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 3 övladı var.



**Arif Qafar oğlu**
**RƏHİMZADƏ**

*61 saylı Neftçala*
*seçki dairəsi*

1941-ci ilin fevral ayında Gəncə şəhərində anadan olmuşdur. Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakültəsini və Bakı Ali Partiya Məktəbini bitirmişdir. Kənd təsərrüfatı elmləri namizədidir. Rus dilini bilir.

1963-cü ildən Azərbaycan Elmi Tədqiqat Heyvandarlıq İnstitutunun elmi işçisi, 1967-ci ildən Leninqrad Vilayət Meyvə-Tərəvəz Müfəttişliyinin müfəttişi, Krım təcrübə stansiyasının elmi işçisi, 1969-cu ildən Azərbaycan Elmi Tədqiqat Yemçilik İnstitutunun elmi katibi, baş elmi işçisi olmuşdur. 1971-ci ildən Azərbaycan Nazirlər Sovetində baş referent, 1974-cü ildən Azərbaycan KP MK-da təlimatçı, bölmə müdiri, şöbə müdirinin müavini işləmişdir. 1987–1989-cu illərdə Quba Rayon Partiya Komitəsinin birinci katibi, 1989-cu ildən Azərbaycan KP MK-nın şöbə müdiri, 1991-ci ildən Azərbaycan Respublikası Ali Sovetinin komissiya sədri, 1993–1994-cü illərdə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatında dövlət müşaviri vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının və İdarə Heyətinin üzvüdür.

On birinci və on ikinci çağırış Azərbaycan Respublikası Ali Sovetinin, birinci və ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuş, 1994-cü il oktyabrın 14-dən 2005-ci il dekabrın 2-dək parlament Sədrinin birinci müavini vəzifəsində çalışmışdır.

Milli Məclisin Regional məsələlər daimi komissiyasının sədridir. Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Belarus, Azərbaycan-Böyük Britaniya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Parlamentlərarası İttifaqda Azərbaycan nümayəndə heyətinin rəhbəri, MDB Parlamentlərarası Assambleyasının Sosial məsələlər və insan hüquqları komissiyasının sədridir.

Evlidir, 2 övladı var.





**Cəlal Əlirza oğlu**
**ƏLİYEV**

*62 saylı Saatlı*
*seçki dairəsi*

1928-ci il iyunun 30-da Naxçıvan şəhərində anadan olmuşdur. Naxçıvan Dövlət Müəllimlər İnstitutunun təbiət-coğrafiya fakültəsini və Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsini bitirmişdir. Biologiya elmləri doktoru, professordur. Əməkdar elm xadimidir. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Rusiya Kənd Təsərrüfatı Elmləri Akademiyasının həqiqi üzvü, Ukrayna Aqrar Elmlər Akademiyasının və Belarus Kənd Təsərrüfatı Elmləri Akademiyasının xarici üzvüdür. «İstiqlal» ordeni, «Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu» ilə təltif edilmişdir. Onlarca monoqrafiyanın, kitabın və elmi məqalənin müəllifidir. Rus və ingilis dillərini bilir.

1948-ci ildən Azərbaycan Dövlət Universitetinin Bitki fiziologiyası kafedrasında laborant işləmişdir. 1954-cü ildən Azərbaycan Elmi Tədqiqat Əkinçilik İnstitutunda kiçik elmi işçi, baş elmi işçi, 1962-ci ildən laboratoriya müdiri vəzifələrində çalışmışdır. 1971-ci ildən Azərbaycan EA-nın Botanika İnstitutunda fotosintezin fiziologiyası yaradıcı qrupunun rəhbəri, 1976-cı ildən laboratoriya müdiri, şöbə müdiri, 1981-ci ildən Azərbaycan EA-nın Biologiya elmləri bölməsinin akademik-katibi olmuşdur. Hazırda Azərbaycan MEA-nın Rəyasət Heyətinin üzvüdür.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

Birinci və ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Azərbaycan-Almaniya Federativ Respublikası parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəridir.

1 övladı var.



**Pənah Çodar oğlu**
**HÜSEYN**

*63 saylı Sabirabad birinci seçki dairəsi*

1957-ci il oktyabrın 28-də Sabirabad rayonunun Qaraqaşlı kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. Rus və ingilis dillərini bilir.

1980–1983-cü illərdə Sabirabad rayonunda kənd orta məktəbinin müəllimi, tarix muzeyinin elmi işçisi olmuşdur. 1986-cı ildən Azərbaycan EA-nın Fəlsəfə və Hüquq İnstitutunda laborant, kiçik elmi işçi, elmi işçi vəzifələrində çalışmışdır. 1992-ci ildə Azərbaycan Respublikasının Dövlət katibi, 1993-cü ildə Azərbaycan Respublikasının Baş naziri işləmişdir. 1997–2000-ci illərdə Azərbaycan MEA-nın Fəlsəfə və Hüquq İnstitutunun elmi işçisi olmuşdur.

Azərbaycan Xalq Partiyasının üzvüdür.

Milli Məclisin Təhlükəsizlik və müdafiə məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Fransa, Azərbaycan-Gürcüstan, Azərbaycan-İran, Azərbaycan-Rusiya, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 3 övladı var.





**Rüstəm Gülabba oğlu**
**XƏLİLOV**

*64 saylı Sabirabad ikinci seçki dairəsi*

1958-ci il iyunun 1-də Sabirabad rayonunun Hacıbəbir kəndində anadan olmuşdur. Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakültəsini və Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu bitirmişdir. Rus dilini bilir.

1980-ci ildən Sabirabad rayonunda kənd təsərrüfatı idarəsində aqronom, 1983-cü ildən rayon Komsomol Komitəsinin katibi, ikinci katibi, birinci katibi, 1989-cu ildən Sabirabad Rayon Partiya Komitəsinin Təşkilat və kadr işi şöbəsinin müdiri işləmişdir. 1991-ci ildən G. Xəlilov adına kolxozun idarə heyətinin sədri, 2000-ci ildən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Astara gömrük keçid məntəqəsi rəisinin müavini vəzifələrində çalışmış, 2002–2005-ci illərdə fərdi təsərrüfatçılıqla məşğul olmuşdur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Regional məsələlər daimi komissiyasının üzvüdür. Azərbaycan-Argentina parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Almaniya Federativ Respublikası, Azərbaycan-Belarus, Azərbaycan-Qazaxıstan, Azərbaycan-Macarıstan, Azərbaycan-Türkiyə, Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 4 övladı var.



## Gülhüseyn Əliəhməd oğlu ƏHMƏDOV

*65 saylı Saatlı-Sabirabad-Kürdəmir seçki dairəsi*

1955-ci il iyunun 20-də Saatlı rayonunun Qaracalar kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin fizika fakültəsini bitirmişdir. Biologiya elmləri namizədidir. 15 elmi əsərin müəllifidir. Rus dilini bilir.

1977-ci ildən Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin Elmi Tədqiqat Əkinçilik İnstitutunda kiçik elmi işçi, analitik, baş elmi işçi olmuşdur. 1989-cu ildən Abşeron Rayon Məmmədli Tərəvəzçilik-Südçülük Aqrar İstehsalat Birliyinin baş aqronomu, Abşeron Rayon Aqrar-Sənaye Kombinatının aparıcı aqronomu, 1992-ci ildən «Qaracalar» kiçik müəssisəsi direktorunun müavini vəzifələrində çalışmışdır. 1993–2005-ci illərdə Saatlı Rayon İcra Hakimiyyətinin başçısı işləmişdir.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Aqrar siyasət daimi komissiyasının üzvüdür. Azərbaycan-İordaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Avstraliya, Azərbaycan-Bosniya və Herseqovina, Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 4 övladı var.





## Xanhüseyn Hüseynağa oğlu KAZIMLI

*66 saylı Biləsuvar seçki dairəsi*

1942-ci il oktyabrın 1-də İmişli rayonunun Ağaməmmədli kəndində anadan olmuşdur. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun uçot-iqtisad fakültəsini bitirmişdir. İqtisad elmləri doktoru, professordur. «Şöhrət» ordeni ilə təltif edilmişdir. «Qızıl qələm» və Hacı Zeynalabdin Tağıyev mükafatları laureatıdır. Beynəlxalq Qiymətləndiricilər Cəmiyyətinin üzvü, Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin fəxri sədridir. 50-dən çox monoqrafiyanın və dərsliyin, 300-dən çox elmi-publisistik məqalənin müəllifidir. Rus və ingilis dillərini bilir.

1967-ci ildən Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda laborant, baş laborant, müəllim, baş müəllim, dosent, professor vəzifələrində çalışmışdır. 1991-ci ildən Azərbaycan Dövlət İqtisad Universitetində kafedra müdiri, prorektor, 1994-cü ildən Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Baş Qiymətlər İdarəsinin rəisi, 1998–1999-cu illərdə Azərbaycan Respublikası Milli Məclisi Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri olmuşdur. Hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin Qiymət kafedrasının müdiridir.

Azərbaycan Sosial Rifah Partiyasının sədridir.

Birinci və ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin İqtisadi siyasət daimi komissiyasının üzvüdür. Azərbaycan-Macarıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Cənubi Afrika Respublikası, Azərbaycan-Çin, Azərbaycan-Səudiyyə Ərəbistanı parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

İslam Konfransı Təşkilatının Parlament Məclisində Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 5 övladı var.



**Aydın Xanhüseyn oğlu
HƏSƏNOV**

*67 saylı Cəlilabad şəhər
seçki dairəsi*

1942-ci il noyabrın 7-də Cəlilabad şəhərində anadan olmuşdur. Bakı Ali Hərbi Ümumqoşun Məktəbini və Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. Rus dilini bilir.

1961-ci ildən Cəlilabad Rayon Hərbi Komissarlığında şöbə rəisinin köməkçisi, 1969-cu ildən Biləsuvar rayonunda hərbi komissarın köməkçisi, Hərbi Komissarlığın şöbə rəisi işləmişdir. 1974-cü ildən Sabirabad Rayon Hərbi Komissarlığında şöbə rəisi, 1978-ci ildən Ağsu rayonunun, 1980-ci ildən Şamaxı rayonunun hərbi komissarı olmuşdur. 1987-ci ildən Azərbaycan Respublikasının Hərbi Komissarlığında 2-ci şöbənin və Respublika toplanış məntəqəsinin rəisi, 1992-ci ildən Azərbaycan Respublikası Prokurorluğunun şöbə prokuroru, 1995–1997-ci illərdə Respublika toplanış məntəqəsinin rəisi vəzifələrində çalışmışdır.

Bitərəfdir.

Milli Məclisin Təhlükəsizlik və müdafiə məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Mərakeş parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Əfqanıstan, Azərbaycan-Gürcüstan, Azərbaycan-İraq, Azərbaycan-İran, Azərbaycan-Pakistan, Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 3 övladı var.



**Mirkazım Məhəmməd oğlu
KAZIMOV**



*68 saylı Cəlilabad kənd
seçki dairəsi*

1950-ci il oktyabrın 10-da Cəlilabad rayonunun Hasıllı kəndində anadan olmuşdur. Moskva Yeyinti Sənayesi İnstitutunun balıqçılıq təsərrüfatı fakültəsini bitirmişdir. Rus dilini bilir.

1973-cü ildən Riqa balıq bazasında usta, 1977-ci ildən «Cənubxəzərbalıqdəniz» İdarəsində müfəttiş, 1993-cü ildən Sabunçu balıq ovu və emalı zavodunda mühəndis-texnoloq işləmişdir. 1994-cü ildən Yeni Azərbaycan Partiyasının mərkəzi aparatında baş təlimatçı, işlər müdiri vəzifələrində çalışmışdır. 1996-cı ildən «Qasid» Açıq Səhmdar Cəmiyyətinin sədridir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Albaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Argentina, Azərbaycan-Malayziya, Azərbaycan-Rumıniya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

GUAM-ın Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 2 övladı var.



**Fəzail Feyruz oğlu**
**İBRAHİMLİ**

*69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsi*

1951-ci il aprelin 12-də Yardımlı rayonunun Çanaqbulaq kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Tarix elmləri doktoru, professordur. 60-dək elmi əsərin müəllifidir. Rus dilini bilir.

1973-cü ildən Yardımlı rayonunda orta məktəb müəllimi işləmişdir. 1982-ci ildən Azərbaycan Dövlət Universitetində müəllim, baş müəllim, dosent vəzifələrində çalışmışdır. 2000-ci ildən Bakı Dövlət Universitetinin professorudur.

Vətəndaş Həmrəyliyi Partiyasının üzvüdür.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Regional məsələlər daimi komissiyasının üzvüdür. Milli Məclis yanında Toponimiya komissiyasının üzvüdür. Azərbaycan-Belçika, Azərbaycan-Cənubi Afrika Respublikası, Azərbaycan-Qazaxıstan, Azərbaycan-Meksika, Azərbaycan-Rumıniya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 3 övladı var.





**Əhəd Mikayıl oğlu**
**ABIYEV**

*70 saylı Masallı şəhər seçki dairəsi*

1958-ci il yanvarın 15-də Masallı şəhərində anadan olmuşdur. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun iqtisadiyyat və planlaşdırma fakültəsini və universitetin hüquq fakültəsini bitirmişdir. Rus və ingilis dillərini bilir.

1979-cu ildən Bakı şəhərində tikinti-quraşdırma idarəsinin ustası, mənzil-istismar sahəsinin texniki, «Azərittifaq»ın universal bazasının iqtisadçısı olmuşdur. 1984–1995-ci illərdə Bakı Şəhər İcraiyyə Komitəsində inspektor, iqtisadçı, şöbə müdiri vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Birinci və ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Regional məsələlər daimi komissiyasının üzvüdür. Milli Məclis yanında Toponimiya komissiyasının üzvüdür. Azərbaycan-Portuqaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Əlcəzair, Azərbaycan-Hindistan parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.



**Elmira Hüseyn qızı**
**AXUNDOVA**

*71 saylı Masallı kənd seçki dairəsi*

1953-cü il mayın 26-da Moskva vilayətinin Ramenskoye qəsəbəsində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. Filologiya elmləri namizədidir. Əməkdar jurnalistdir. «Şöhrət» ordeni ilə təltif edilmişdir. Həsən bəy Zərdabi, Rəsul Rza və Nəcəf Nəcəfov mükafatlarının laureatıdır. R.Rza adına Beynəlxalq Ədəbiyyat Fondunun vitse-prezidentidir. Bir sıra bədii və publisistik kitabların müəllifidir. Rus və fransız dillərini bilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Əfv məsələləri komissiyasının üzvüdür.

1977-ci ildən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində redaktor, 1980-ci ildən Azərbaycan Yazıçılar İttifaqında referent-məsləhətçi, 1988-ci ildən Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda baş elmi işçi vəzifələrində çalışmışdır. 1990-cı ildən «Литературная газета»nın, 1993-cü ildən «Свобода» radiosunun müxbiri, 1998-ci ildən «Общая газета»nın Azərbaycan üzrə xüsusi müxbiri olmuşdur. 2002-ci ildən Bakı Slavyan Universitetinin dosentidir.

Bitərəfdir.

Milli Məclisin Sosial siyasət daimi komissiyasının üzvüdür. Azərbaycan-Lüksemburq parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Çernoqoriya, Azərbaycan-Fransa, Azərbaycan-Küveyt, Azərbaycan-Rusiya, Azərbaycan-Slovakiya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 2 övladı var.



**Sabir Xudu oğlu**
**RÜSTƏMXANLI**



*72 saylı Yardımlı-Masallı seçki dairəsi*

1946-cı il mayın 20-də Yardımlı rayonunun Hamarkənd kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. Filologiya elmləri doktorudur. Azərbaycanın xalq şairidir. «Şöhrət» ordeni ilə təltif edilmişdir. Dünya Azərbaycanlıları Konqresinin həmsədridir. 30-dan çox kitabın müəllifidir, onlardan 10-u xarici ölkələrdə çap edilmişdir. Rus və fars dillərini bilir.

1967-ci ildən «Ədəbiyyat və incəsənət» qəzetinin redaksiyasında kiçik ədəbi işçi, baş ədəbi işçi, şöbə müdiri, xüsusi müxbir, 1978-ci ildən «Yazıçı» nəşriyyatında şöbə müdiri, baş redaktorun müavini, baş redaktor, 1989–1991-ci illərdə «Azərbaycan» qəzetinin baş redaktoru olmuşdur. 1991-ci ildən Azərbaycan Respublikası Dövlət Mətbuat Komitəsinin sədri, 1992–1995-ci illərdə mətbuat və informasiya naziri vəzifələrində çalışmışdır.

Vətəndaş Həmrəyliyi Partiyasının sədridir.

On ikinci çağırış Azərbaycan Respublikası Ali Sovetinin, birinci və ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının üzvüdür. Milli Məclis yanında Toponimiya komissiyasının üzvüdür. Azərbaycan-Kanada parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvüdür.

İslam Konfransı Təşkilatının Parlament Məclisində Azərbaycan nümayəndə heyətinin üzvü və Siyasi komitənin üzvüdür.

Evlidir, 4 övladı var.



**Rüfət Atakişi oğlu**
**QULİYEV**

*73 saylı Lənkəran şəhər seçki dairəsi*

1963-cü il mayın 6-da Bakı şəhərində anadan olmuşdur. Kiyev Dövlət Universitetinin iqtisadiyyat fakültəsini bitirmişdir. İqtisad elmləri doktoru, professordur. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun Himayəçilər Şurasının, Azərbaycan-Türkiyə İş Adamları Birliyi Məsləhət Şurasının üzvü, Azərbaycan-Türkiyə Biznes Şurasının həmsədridir. 115 elmi əsərin və məqalənin müəllifidir. Rus və ingilis dillərini bilir.

1986-cı ildən Azərbaycan Politexnik İnstitutunda baş laborant, müəllim, baş müəllim, 1997-ci ildən Azərbaycan Texniki Universitetində dosent vəzifələrində çalışmışdır. 1999-cu ildən «European Tobacco-Baku» Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədridir.

Bitərəfdir.

Milli Məclisin İqtisadi siyasət daimi komissiyasının üzvüdür. Azərbaycan-Danimarka, Azərbaycan-Hindistan, Azərbaycan-İtaliya, Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

GUAM-ın Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 2 övladı var.



**Hadi Musa oğlu**
**RƏCƏBLİ**



*74 saylı Lənkəran kənd seçki dairəsi*

1947-ci il oktyabrın 25-də Lənkəran rayonunun Veravul kəndində anadan olmuşdur. Moskva Yeyinti Sənayesi İnstitutunun texnologiya fakültəsini və Bakı Ali Partiya məktəbini bitirmişdir. Siyasi elmlər namizədidir. «Şöhrət» ordeni ilə təltif edilmişdir. 8 kitabın və 200-dən çox elmi-publisistik məqalənin müəllifidir. Rus və ingilis dillərini bilir.

1963-cü ildən Lənkəran çörək zavodunda fəhlə, mühasib, texnoloq, iqtisadçı işləmişdir. 1971-ci ildən Lənkəran Şəhər Komsomol Komitəsinin ikinci katibi, 1972-ci ildən birinci katibi, 1978-ci ildən «Бакинский рабочий» qəzetinin xüsusi müxbiri, 1980-ci ildən Lənkəran Şəhər İcraiyyə Komitəsinin sədri olmuşdur. 1981-ci ildən Azərbaycan KP MK-nın Təşkilat-partiya işi şöbəsinin inspektoru, 1983-cü ildən Şəki Şəhər Partiya Komitəsinin birinci katibi, 1989–1995-ci illərdə Azərbaycan Respublikasının Nazirlər Kabinetində referent, aparıcı mütəxəssis, bölmə müdiri, şöbə müdirinin müavini, şöbə müdiri vəzifələrində çalışmışdır. Hazırda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq münasibətlər kafedrasının dosentidir.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Birinci və ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Sosial siyasət daimi komissiyasının sədridir. Azərbaycan-Yunanıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Böyük Britaniya, Azərbaycan-İran, Azərbaycan-Koreya, Azərbaycan-Litva, Azərbaycan-Norveç parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 4 övladı var.



## Cavanşir Hümmət oğlu PAŞAZADƏ

*75 saylı Lənkəran-Masallı seçki dairəsi*

1953-cü il aprelin 12-də Lənkəran rayonunun Cil kəndində anadan olmuşdur. Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının kənd təsərrüfatının iqtisadiyyatı və təşkili fakültəsini bitirmişdir. Rus, fars, özbək və tacik dillərini bilir.

1977-ci ildən Lənkəran Su Tikinti İdarəsində texnik, mühəndis, suvarma istehsalatında sahə ustası, sahə rəisi, tikinti trestində əmtəəşünas, usta işləmişdir. 1986-cı ildən Lənkəran Texniki Materiallar Bazasında mühəndis, neft məhsulları bazasında operator, paylayıcı briqadir, direktor müavini olmuşdur. 1992-ci ildən Lənkəran 3 saylı çay fabrikinin direktoru, 1998–2005-ci illərdə Qızılağac Dövlət Təbiət Qoruğunun direktoru vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin İnsan hüquqları daimi komissiyasının üzvüdür. Azərbaycan-Suriya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-İraq, Azərbaycan-İtaliya, Azərbaycan-Pakistan, Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

İslam Konfransı Təşkilatının Parlament Məclisində Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 3 övladı var.





## Ziyafət Abbas oğlu ƏSGƏROV

*76 saylı Lənkəran-Astara seçki dairəsi*

2005-ci il dekabrın 2-dən Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavinidir.

1963-cü il oktyabrın 24-də Naxçıvan Muxtar Respublikası Babək rayonunun Aşağı Uzunoba kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Hüquq elmləri namizədi, professordur. Bir neçə dərsliyin, dərs vəsaitinin və onlarca elmi məqalənin müəllifidir. Rus və fransız dillərini bilir.

1995-ci ildə Azərbaycan Respublikasının ilk milli Konstitusiyasını işləyib hazırlayan Komissiyanın işçi qrupunun üzvü olmuşdur.

Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə komissiyasının üzvüdür.

1990-cı ildən Bakı Dövlət Universitetində Konstitusiya hüququ kafedrasının müəllimi, baş müəllimi, dosenti, kafedra müdirinin müavini, hüquq fakültəsi dekanının müavini vəzifələrində çalışmışdır. Hazırda Konstitusiya hüququ kafedrasının professorudur.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

Birinci və ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuş, 2000-ci il noyabrın 24-dən 2005-ci il dekabrın 2-dək parlament Sədrinin müavini, Təhlükəsizlik və müdafiə məsələləri daimi komissiyasının sədri vəzifəsində çalışmışdır.

Hazırda Milli Məclisin Təhlükəsizlik və müdafiə məsələləri daimi komissiyasının sədridir.

NATO-nun Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəridir.

Evlidir, 2 övladı var.



**Vasif İzzət oğlu**
**ƏLİYEV**

*77 saylı Astara*
*seçki dairəsi*

1941-ci il sentyabrın 21-də Astara şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun neft və qaz mədənlərinin maşın və avadanlığı fakültəsini bitirmişdir. Texnika elmləri doktorudur. Əməkdar mühəndisdir. 1 monoqrafiyanın, 3 kitabın və 36 məqalənin müəllifidir. 7 ixtirası və 3 patenti vardır. Rus və ingilis dillərini bilir.

1963-cü ildən Neft Mədənləri İdarəsində çilingər, mexanik, qaz-kompressor stansiyasının rəisi, qaz-kompressor sexi rəisinin müavini, baş mühəndis, 1973-cü ildən «Qaradağneft» NQÇİ-də sex rəisi, «Azərqaz-nəqliyyat» İstehsalat Birliyində mexanikləşdirilmiş səyyar dəstənin rəisi, 1977-ci ildən Azərbaycan qaz emalı zavodunda blok üzrə mühəndis-mexanik, 1978-ci ildən «Neft Daşları» NQÇİ-də qaz-kompressor sexi rəisinin müavini işləmişdir. 1980-ci ildən «Xəzərdənizneftqazsənaye» İstehsalat Birliyinin böyük mühəndisi, şöbə rəisi vəzifələrində çalışmışdır. 2000–2005-ci illərdə ARDNŞ-nin Neftin və qazın strateji problemlərinin koordinasiyası departamentinin rəisi olmuşdur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Belarus, Azərbaycan-İraq, Azərbaycan-Makedoniya, Azərbaycan-Suriya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 3 övladı var.





**Miri Əhəd oğlu**
**QƏNBƏROV**

*78 saylı Lerik-Lənkəran*
*seçki dairəsi*

1935-ci il mayın 25-də Lerik rayonunun Siyov kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin iqtisadiyyat fakültəsini bitirmişdir. «Şöhrət» ordeni ilə təltif edilmişdir. «El atası» qızıl döş nişanına, «Qız Qalası» milli mükafatına, «İlin ən yaxşı vətənpərvər xeyriyyəçisi» mükafatına layiq görülmüşdür. Rus dilini bilir.

1956-cı ildən «Azərittifaq»ın mərkəzi ticarət idarəsində baş əmtəəşünas, ticarət idarəsinin direktor müavini, direktoru, mərkəzi aparatın böyük əmtəəşünası, şöbə müdirinin müavini, şöbə müdiri, 1980-ci ildən Bakı Şəhər Ticarət İdarəsinin şöbə rəisi, Yasamal Rayon Ticarət İdarəsinin baş direktoru, respublika İdman və Mədəni Mallar Birliyinin baş direktoru vəzifələrində çalışmışdır. 1994–1997-ci illərdə Azərbaycan Respublikasının ticarət naziri olmuşdur. 1997-ci ildən «Azərkontrakt» Səhmdar Cəmiyyətinin sədridir.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Aqrar siyasət daimi komissiyasının üzvüdür. Azərbaycan-Misir parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Estoniya, Azərbaycan-Kanada parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

İslam Konfransı Təşkilatının Parlament Məclisində Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 4 övladı var.



**İltizam Nizam oğlu**
**ƏKBƏRLİ**

*79 saylı İmişli seçki dairəsi*

1957-ci il iyulun 1-də İmişli şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsini bitirmişdir. Rus dilini bilir.

1979-cu ildən İmişli rayonunda müəllim, Gənc texniklər stansiyasının müdiri işləmişdir. 1983–1991-ci illərdə İmişli Rayon İcraiyyə Komitəsində təlimatçı, Təşkilat şöbəsinin müdiri vəzifələrində çalışmışdır. 1992–1993-cü illərdə İmişli Rayon İcra Hakimiyyətinin başçısı olmuşdur.

Müsavat Partiyasının üzvüdür.

Milli Məclisin İnsan hüquqları daimi komissiyasının üzvüdür. Azərbaycan-Belçika, Azərbaycan-Norveç, Azərbaycan-Yunanıstan parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.





**Əhəd Abbas oğlu**
**ƏHMƏDOV**

*80 saylı İmişli-Beyləqan seçki dairəsi*

1967-ci il martın 5-də İmişli rayonunun Göbəktala kəndində anadan olmuşdur. Azərbaycan Dövlət İqtisad Universitetinin beynəlxalq iqtisadi münasibətlər fakültəsini bitirmişdir. Rus dilini bilir.

1991-ci ildən «Günəş» Elm-İstehsalat Assosiasiyasının direktoru, 1994-cü ildən Azərbaycan Kurortlar Birliyinin şöbə rəisi, 1996-cı ildən «Azəri» firmasının direktoru, 2000–2005-ci illərdə Füzuli rayon şərab zavodunun direktoru vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin İqtisadi siyasət daimi komissiyasının üzvüdür. Azərbaycan-Cənubi Afrika Respublikası, Azərbaycan-Çin, Azərbaycan-Meksika, Azərbaycan-Özbəkistan, Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.



## Səfər Musa oğlu MƏMMƏDOV

*81 saylı Beyləqan seçki dairəsi*

1951-ci il noyabrın 8-də Beyləqan şəhərində anadan olmuşdur. Jurnalist Sənətkarlığı İnstitutunu bitirmişdir. Rus dilini bilir.

1968-ci ildən Beyləqanda «Yüksəliş» qəzetinin mətbəəsində mürəttib, linotipçi, korrektor işləmişdir. 1981-ci ildən yerli radio verilişləri redaksiyasının müxbiri, 1982-ci ildən «Yüksəliş» qəzetinin korrektoru, mətbəə müdiri, 1993-cü ildən «Beyləqan» qəzetinin məsul katibi olmuşdur. 1996-cı ildən Yeni Azərbaycan Partiyası Beyləqan rayon təşkilatında şöbə müdiri, aparatın rəhbəri vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Mədəniyyət məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Qırğızıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-İsrail, Azərbaycan-Malayziya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 4 övladı var.





## Tahir Musa oğlu RZAYEV

*82 saylı Ağcabədi seçki dairəsi*

1950-ci il fevralın 24-də Ağcabədi rayonunun Xəlfərəddin kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini və Bakı Ali Partiya Məktəbini bitirmişdir. 12 kitabın müəllifidir. Rus dilini bilir.

1970-ci ildən Ağcabədi rayonunun tikinti idarələrində fəhlə işləmişdir. 1971-ci ildən Ağcabədi rayonunda çıxan «Sürət» qəzetində ədəbi işçi, 1977-ci ildən rayon Komsomol Komitəsinin ikinci katibi, birinci katibi, 1982-ci ildən Ağcabədi Rayon Partiya Komitəsinin təlimatçısı, 1987-ci ildən Ağcabədi Rayon İcraiyyə Komitəsi sədrinin birinci müavini, Ağcabədi Rayon Partiya Komitəsinin ikinci katibi olmuşdur. 1989–1991-ci illərdə rayon yemçilik birliyində fəhlə, 1991-ci ildən «Ülfət» qəzetində ədəbi işçi, «Aran» qəzetində şöbə müdiri, 1994-cü ildən Ağcabədi Rayon İcra Hakimiyyəti başçısının köməkçisi, İcra Hakimiyyətinin şöbə müdiri, 1999–2001-ci illərdə Ağcabədi şəhər bələdiyyəsinin sədri vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Regional məsələlər daimi komissiyasının üzvüdür. Azərbaycan-Qətər parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Əfqanıstan, Azərbaycan-Norveç, Azərbaycan-Pakistan, Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 3 övladı var.



## Aqil Məhəmməd oğlu ABBASOV

*83 saylı Ağcabədi-Ağdam seçki dairəsi*

1953-cü il aprelin 1-də Ağcabədi rayonunun Bayat kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Azərbaycanın əməkdar jurnalistidir. Lenin komsomolu mükafatı laureatıdır. «Araz», «Dan ulduzu», «Qızıl qələm» mükafatlarına layiq görülmüşdür. 10 kitabın müəllifidir. Rus dilini bilir.

1976-cı ildən Ağsu şəhər internat məktəbində müəllim işləmişdir. 1977-ci ildən «Elm və həyat» jurnalının, 1987-ci ildən «Sovet kəndi» qəzetinin şöbə müdiri vəzifəsində çalışmışdır. 1990-cı ildən «Ədalət» qəzetinin baş redaktorudur.

Bitərəfdir.

Milli Məclisin Təhlükəsizlik və müdafiə məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Albaniya, Azərbaycan-Fransa, Azərbaycan-Meksika, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.





## Bahar Əvəz qızı MURADOVA

*84 saylı Füzuli seçki dairəsi*

2005-ci il dekabrın 2-dən Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavinidir.

1962-ci il martın 20-də Füzuli şəhərində anadan olmuşdur. Bakı Yüngül Sənaye Texnikumunu fərqlənmə diplomu ilə, Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini və Azərbaycan Universitetinin hüquq fakültəsini bitirmişdir. İngilis və rus dillərini bilir.

1981-ci ildən Bakıda tikiş fabrikində tikişçi-nəzarətçi, 1989-cu ildən Azərbaycan Könüllü Kitabsevərlər Cəmiyyətinin, 1992-ci ildən «Qayğı» Cəmiyyəti Yasamal rayon təşkilatının məsul katibi işləmişdir. 1993-cü ildən Yasamal Rayon İcra Hakimiyyətinin təlimatçısı, 1995–2000-ci illərdə Azərbaycan Respublikası Prezidenti İcra Aparatının İctimai-siyasi şöbəsinin referenti vəzifələrində çalışmışdır. 2000-ci ildən YAP-ın icra katibinin müavinidir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının və İdarə Heyətinin üzvüdür.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Azərbaycan-İsveçrə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəridir.

ATƏT-in Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəridir.

Evlidir, 1 övladı var.



**Maqsud
Məmmədibrahim oğlu
İBRAHİMBƏYOV**

*85 saylı Şamaxı
seçki dairəsi*

1935-ci il mayın 11-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsini, Moskva ali ssenari və rejissorluq kurslarını bitirmişdir. Azərbaycan Dövlət mükafatı laureatı, əməkdar incəsənət xadimidir. Xalq yazıçısıdır. Azərbaycan Respublikasının «İstiqlal» və «Şöhrət» ordenləri, Rusiya Federasiyasının «Dostluq» ordeni ilə təltif edilmişdir. Azərbaycan Sülh Fondunun prezidenti, Yazıçıların beynəlxalq PEN mərkəzinin prezidenti, Əsilzadələr Məclisinin sədridir. Onlarca bədii və publisistik kitabın, 15 bədii və 20-dən çox sənədli filmin ssenarisinin, tamaşaya qoyulmuş 8 pyesin müəllifidir. Rus dilini bilir.

1959-cu ildən Azərbaycan Tikinti Nazirliyinin tikinti trestində iş icraçısı vəzifəsində çalışmışdır. 1964–1971-ci illərdə Ümumittifaq Radio və Televiziya Verilişləri Komitəsinin Azərbaycan üzrə xüsusi müxbiri işləmişdir.

Bitərəfdir.

On birinci və on ikinci çağırış Azərbaycan Respublikası Ali Sovetinin deputatı, birinci və ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının üzvüdür. Azərbaycan-Litva parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Almaniya Federativ Respublikası, Azərbaycan-Kanada, Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 1 övladı var.





**Novruzəli Davud oğlu
ASLANOV**

*86 saylı İsmayıllı
seçki dairəsi*

1963-cü il martın 22-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunun avtomatika və elektron-hesablayıcı texnika fakültəsini bitirmişdir. Beynəlxalq Ekologiya-Energetika Akademiyasının fəlsəfə doktorudur. «Tərəqqi» medalı ilə təltif edilmişdir. 6 kitabın müəllifidir. Rus və ingilis dillərini bilir.

Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar dövlət komissiyasının üzvüdür.

1985-ci ildən Bakı elektron-hesablayıcı maşınlar zavodunda mühəndis-konstruktor, böyük mühəndis, şöbə müdiri, direktor müavini işləmişdir. 1991-ci ildən «Azərağackağız» İdarəsinin rəis müavini, rəisi, «Azərağackağız» Səhmdar Cəmiyyətinin sədri, prezidenti vəzifələrində çalışmışdır. 1999–2003-cü illərdə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin sədri olmuşdur. 2003-cü ildən Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidentidir.

Bitərəfdir.

Milli Məclisin Aqrar siyasət daimi komissiyasının üzvüdür. Azərbaycan-Çernoqoriya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Albaniya, Azərbaycan-Danimarka, Azərbaycan-Kuba, Azərbaycan-Tacikistan parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 4 övladı var.



## Ərəstun Nurəddin oğlu CAVADOV

*87 saylı Ağsu-İsmayıllı seçki dairəsi*

1948-ci il oktyabrın 20-də Ağsu rayonunun Ərəbmehdibəy kəndində anadan olmuşdur. Moskva Kooperativ İnstitutunun əmtəəşünaslıq fakültəsini bitirmişdir. Rus dilini bilir.

1967-ci ildən Azərbaycan İctimai Asayişin Mühafizəsi Nazirliyində elektrik, «Azərgeyimticarət» Bazasında əmtəəşünas işləmişdir. 1972-ci ildən Mərkəzi univermaqda böyük anbardar, bölmə müdirinin müavini, bölmə müdiri, şöbə rəisi, 1992-ci ildən baş direktor vəzifələrində çalışmışdır. 1998–2005-ci illərdə «Mərkəzi Univermaq» Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri olmuşdur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Aqrar siyasət daimi komissiyasının üzvüdür. Azərbaycan-Belarus, Azərbaycan-Belçika, Azərbaycan-Braziliya, Azərbaycan-İran, Azərbaycan-Lüksemburq, Azərbaycan-Moldova, Azərbaycan-Serbiya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 1 övladı var.



## Sabir Kamal oğlu HACIYEV

*88 saylı Göyçay seçki dairəsi*



1954-cü il oktyabrın 5-də Göyçay şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. Rus və ingilis dillərini bilir.

1977-ci ildən Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin VVAQ idarəsində məsləhətçi, baş məsləhətçi, Qanunların sistemləşdirilməsi və qanun layihələrinin hazırlanması idarəsində baş məsləhətçi, rəis müavini işləmişdir. 1988-ci ildən respublika Prokurorunun köməkçisi, Nazirlər Soveti Hüquq şöbəsinin müdiri vəzifələrində çalışmışdır. 1990–1992-ci illərdə Azərbaycan Respublikası Prezidenti Aparatı Dövlət-hüquq şöbəsinin müdiri, hüquq siyasəti üzrə Azərbaycan Respublikasının dövlət müşaviri olmuşdur.

Vətəndaş Birliyi Partiyasının sədridir.

On ikinci çağırış Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuşdur.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Avstriya, Azərbaycan-Böyük Britaniya, Azərbaycan-Çernoqoriya, Azərbaycan-Fransa, Azərbaycan-Lüksemburq, Azərbaycan-Makedoniya, Azərbaycan-Polşa, Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

2 övladı var.



**Şəmsəddin Hümmət oğlu**
**HACIYEV**

*89 saylı Göyçay-Ağdaş seçki dairəsi*

1950-ci il noyabrın 8-də Ucar rayonunun Lək kəndində anadan olmuşdur. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun ticarətin iqtisadiyyatı fakültəsini bitirmişdir. İqtisad elmləri doktoru, professordur. Rus və ingilis dillərini bilir.

1970-ci ildən Azərbaycan Dövlət Plan Komitəsinin Elmi Tədqiqat İqtisadiyyat İnstitutunda iqtisadçı, kiçik elmi işçi, baş elmi işçi, bölmə müdiri işləmişdir. 1981-ci ildən Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda baş müəllim, dosent, həmkarlar ittifaqı komitəsinin sədri, kafedra müdiri vəzifələrində çalışmışdır. 2004-cü ildən Azərbaycan Dövlət İqtisad Universitetinin rektorudur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyasının sədridir. Azərbaycan-Slovakiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Almaniya Federativ Respublikası, Azərbaycan-İran, Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 1 övladı var.



**Çingiz Rauf oğlu**
**ƏSƏDULLAYEV**



*90 saylı Ağdaş seçki dairəsi*

1960-cı il avqustun 25-də Sumqayıt şəhərində anadan olmuşdur. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun maliyyə və kredit fakültəsini bitirmişdir. Azərbaycan Banklar Assosiasiyasının vitse-prezidentidir. Bakı Fond Birjası Müşahidə Şurasının və İnvestisiyaların Təşviqi Fondunun Himayəçilər Şurasının sədridir. Rus və ingilis dillərini bilir.

1979-cu ildən SSRİ Dövlət Bankının Azərbaycan kontorunda iqtisadçı, aparıcı iqtisadçı, 1986-cı ildən Azərbaycan Dövlət Aqrar-Sənaye Komitəsində bölmə rəisi, «Azərittifaq» Birliyində baş iqtisadçı, idarə rəisinin müavini işləmişdir. 1990-cı ildən Bakı İstehlakçılar Cəmiyyətinin vitse-prezidenti, «Nefteko» sovet-alman müəssisəsinin icraçı direktoru, 1991-ci ildən «Turan» Səhmdar Cəmiyyətinin vitse-prezidenti, 1992-ci ildən «Azəriqazbank» Səhmdar İnvestisiya Bankının İdarə Heyətinin sədri vəzifələrində çalışmışdır. 1997-ci ildən «Azəriqazbank» Səhmdar İnvestisiya Bankının Müşahidə Şurasının sədri, 2007-ci ildən Azərbaycan Respublikasının Əmanətlərin Sığortalanması Fondunun Müşahidə Şurasının sədridir.

Bitərəfdir.

Milli Məclisin İqtisadi siyasət daimi komissiyası sədrinin müavinidir. Azərbaycan-Böyük Britaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan-İndoneziya, Azərbaycan-Küveyt, Azərbaycan-Latviya, Azərbaycan-Özbəkistan, Azərbaycan-Tailand parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa İttifaqı – Azərbaycan parlament əməkdaşlığı komitəsi sədrinin müavinidir.

Evlidir, 5 övladı var.



**Elton Arzuman oğlu**
**MƏMMƏDOV**

*91 saylı Ucar*
*seçki dairəsi*

1954-cü il dekabrın 18-də Ucar rayonunun Qazıqumlaq kəndində anadan olmuşdur. Tomsk İnşaat Mühəndisləri İnstitutunun avtomobillər və avtomobil təsərrüfatı fakültəsini bitirmişdir. Texnika elmləri namizədidir. Azərbaycan Texniki Universitetinin professorudur. Tomsk Dövlət İnşaat Arxitektorları Universitetinin fəxri professorudur. Tomsk şəhərinin fəxri vətəndaşıdır. MDB-nin «Содружество» ordeni ilə təltif edilmişdir. 6 elmi əsərin müəllifidir. 2 ixtirası vardır. Rus dilini bilir.

1978-ci ildən «Azərətbalıq» sənaye birliyində maşinist işləmişdir. 1979-cu ildən «Tomlessurs» birliyində maşinist, Tomsk idman və tamaşa kompleksinin xidmət rəisi, baş mühəndisi və direktoru olmuşdur. 1989-cu ildən Azərbaycan Avtomobil Nəqliyyatı Nazirliyinin avtomobillərin təmiri zavodunda mühəndis, «Bakavtobusservis» birgə müəssisəsinin direktoru işləmişdir. 1992-ci ildən «Auditor» elm-istehsal firmasının direktoru, «Simvol» firmasının direktoru, 1997-ci ildən «Azərnəqliyyat» Dövlət Konserninin avtonəqliyyat müəssisəsinin direktoru, «Baktrans» Səhmdar Cəmiyyətinin sədri, 1998–2000-ci illərdə «Azərtrans» nəqliyyat ekspeditor şirkəti baş direktorunun müavini vəzifələrində çalışmışdır.

Bitərəfdir.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri daimi komissiyası sədrinin müavinidir. Azərbaycan-İsveçrə, Azərbaycan-Bolqarıstan, Azərbaycan-Misir, Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

GUAM-ın Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri, MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvü, Aqrar siyasət, ekologiya və energetika komitəsi sədrinin müavinidir.

Evlidir, 2 övladı var.



**Jalə Fazil qızı**
**ƏLİYEVA**



*92 saylı Zərdab-Ucar*
*seçki dairəsi*

1966-cı il oktyabrın 5-də Bakı şəhərində anadan olmuşdur. Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsini qırmızı diplomla bitirmiş, daha sonra həmin universitetin hüquq fakültəsində təhsil almışdır. Filologiya elmləri doktorudur. Türk dili və ədəbiyyatı üzrə mütəxəssisdir. 2 monoqrafiyanın və 30-dan çox elmi məqalənin müəllifidir. Rus və ərəb dillərini bilir.

1988-ci ildən Azərbaycan Mədəniyyət Fondunda müfəttiş işləmişdir. 1992–2005-ci illərdə Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı səfirliyində tərcüməçi vəzifəsində çalışmışdır. 1996-cı ildən Bakı Dövlət Universitetinin müəllimi olmuşdur. Hazırda BDU-nun Türk filologiyası kafedrasının professorudur.

Bitərəfdir.

Milli Məclisin Mədəniyyət məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Böyük Britaniya, Azərbaycan-Hindistan, Azərbaycan-Liviya, Azərbaycan-Slovakiya, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa İttifaqı – Azərbaycan parlament əməkdaşlığı komitəsinin və Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisində Azərbaycan nümayəndə heyətinin üzvüdür.

1 övladı var.



## Zahid Məhərrəm oğlu ORUCOV

*93 saylı Bərdə şəhər seçki dairəsi*

1972-ci il fevralın 1-də Gədəbəy rayonunun Əli İsmayıl kəndində anadan olmuşdur. Azərbaycan Texniki Universitetinin avtomatika və hesablama texnikası fakültəsini bitirmişdir. Rus və ingilis dillərini bilir.

1996–2000-ci illərdə Azərbaycan EA-nın Fotoelektronika İnstitutunda elmi işçi vəzifəsində çalışmışdır.

Ana Vətən Partiyası sədrinin müavinidir.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Təhlükəsizlik və müdafiə məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Almaniya Federativ Respublikası, Azərbaycan-Belçika parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.





## Gövhər Baxşəli qızı BAXŞƏLİYEVA

*94 saylı Bərdə kənd seçki dairəsi*

1954-cü il noyabrın 26-da Bərdə şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirmişdir. Filologiya elmləri doktoru, professordur. Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvüdür. «Qızıl qələm» mükafatı laureatıdır. 3 monoqrafiyanın, 5 kitabın, 90-dək elmi və elmi-publisistik məqalənin müəllifidir. Ərəb, rus və ingilis dillərini bilir.

1977-ci ildən Azərbaycan EA-nın Şərqşünaslıq İnstitutunda baş laborant, kiçik elmi işçi, elmi işçi, baş elmi işçi, elmi işlər üzrə direktor müavini, şöbə müdiri vəzifələrində çalışmışdır. 1997-ci ildən Azərbaycan MEA-nın Şərqşünaslıq İnstitutunun direktorudur.

Bitərəfdir.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuş, 2001-ci il iyunun 12-dən 2005-ci il dekabrın 2-dək parlament Sədrinin müavini vəzifəsində çalışmışdır.

Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Liviya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Çin, Azərbaycan-İspaniya, Azərbaycan-Misir parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

İslam Konfransı Təşkilatının Parlament Məclisində Azərbaycan nümayəndə heyətinin rəhbəridir.

1 övladı var.



**Aynur Camal qızı**
**QULİYEVA**

*95 saylı Tərtər*
*seçki dairəsi*

1975-ci il fevralın 7-də Tərtər rayonunun Mamırlı kəndində anadan olmuşdur. Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunun politologiya fakültəsini bitirmişdir. Rus dilini bilir.

«Qadın Konsensus Mərkəzi» İctimai Birliyinin sədridir.

1996–2000-ci illərdə «Azərbaycan Ordusu», «Xalq qəzeti», «Şans», «Ulus», «Millətin səsi», «Yeni Yüzil» qəzetlərinin, 2001–2005-ci illərdə «Yeni Müsavat» qəzetinin müxbiri işləmişdir.

Müsavat Partiyasının üzvüdür.

Milli Məclisin Mədəniyyət məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-İordaniya, Azərbaycan-Qazaxıstan, Azərbaycan-Norveç, Azərbaycan-Yaponiya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir.





**Gültəkin Yunis qızı**
**HACIBƏYLİ**

*96 saylı Goranboy-Naftalan*
*seçki dairəsi*

1973-cü il oktyabrın 13-də Bakı şəhərində anadan olmuşdur. Bakı Dövlət Universitetinin şərqşünaslıq və hüquq fakültələrini fərqlənmə diplomu ilə bitirmişdir. 40-dək elmi məqalə və tezisin müəllifidir. İngilis, fransız, rus, ərəb və fars dillərini bilir.

1996–2002-ci illərdə Qərb Universitetinin İngilis dili və Hüquq kafedralarında müəllim işləmişdir. 1995–1997-ci illərdə Bakı Dövlət Universitetinin Ərəb filologiyası kafedrasının müəllimi olmuşdur. 2002-ci ildən BDU-nun Beynəlxalq hüquq kafedrasının müəllimidir.

Bitərəfdir.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyası sədrinin müavinidir. Azərbaycan-Latviya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Amerika Birləşmiş Ştatları, Azərbaycan-Argentina parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

1 övladı var.



**Qüdrət Müzəffər oğlu**
**HƏSƏNQULİYEV**

*97 saylı Goranboy-Ağdam-Tərtər seçki dairəsi*

1965-ci il yanvarın 29-da Naxçıvan Muxtar Respublikası Culfa rayonunun Əbrəqunus kəndində anadan olmuşdur. Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. Rus və ingilis dillərini bilir.

1992-ci ildən Nəsimi Rayon Prokurorluğunun müstəntiqi, 1993-cü ildə Azərbaycan Respublikası Dövlət katibinin köməkçisi işləmişdir. 1996-cı ildən Bakı Asiya Universitetinin baş müəllimi, 2000–2003-cü illərdə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının katibi vəzifələrində çalışmışdır.

Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədridir.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Belçika parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-İtaliya, Azərbaycan-Moldova parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

NATO-nun Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 2 övladı var.





**Məlahət İbrahim qızı**
**İBRAHİMQIZI**
**(HƏSƏNOVA)**

*99 saylı Şəmkir kənd seçki dairəsi*

1958-ci il aprelin 25-də Ermənistan Respublikası Basarkeçər rayonunun Kiçik Məzrə kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Tibb İnstitutunun pediatriya fakültəsini və Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. Tarix elmləri namizədidir. 4 kitabın müəllifidir. Rus və ingilis dillərini bilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Əfv məsələləri komissiyasının üzvüdür.

1983-cü ildən Bakıda uşaq poliklinikasının həkimi, 1992-ci ildən baş həkimi olmuş, 1998–2000-ci illərdə Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsi sədrinin birinci müavini vəzifəsində çalışmışdır.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür. YAP Nəsimi rayon təşkilatının sədridir.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Sosial siyasət daimi komissiyasının üzvü, Hesablayıcı komissiyasının sədridir. Azərbaycan-Cənubi Afrika Respublikası və Azərbaycan-Serbiya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbəri, Azərbaycan-Almaniya Federativ Respublikası, Azərbaycan-Liviya, Azərbaycan-Suriya, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

NATO-nun Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 2 övladı var.



**Mübariz Qəhrəman oğlu**
**QURBANLI**

*100 saylı Şəmkir-Daşkəsən*
*seçki dairəsi*

1954-cü il yanvarın 7-də Şəmkir rayonunun Koltəhnəli kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Tarix elmləri namizədi, dosentdir. Çoxsaylı elmi, elmi-publisistik, nəzəri, politoloji məqalələrin və bir neçə kitabın müəllifidir. Rus dilini bilir.

1978-ci ildən Şəmkir rayon Koltəhnəli kənd orta məktəbində müəllim işləmişdir. 1985-ci ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində müəllim, baş müəllim, dosent, kafedra müdiri, prorektor vəzifələrində çalışmışdır. Hazırda həmin universitetin dosentidir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının və İdarə Heyətinin üzvü, partiyanın icra katibinin müavinidir.

Birinci və ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Bosniya və Herseqovina parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Kanada, Azərbaycan-Küveyt parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisində Azərbaycan nümayəndə heyətinin üzvü və komitə sədrinin müavinidir.

Evlidir, 2 övladı var.



**Rövşən Şükür oğlu**
**RZAYEV**



*101 saylı Xanlar-Daşkəsən*
*seçki dairəsi*

1962-ci il yanvarın 20-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini və Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. 4 elmi məqalənin müəllifidir. Rus və ingilis dillərini bilir.

1982-ci ildən Bakı şəhərinin Oktyabr Rayon Məhkəməsində tərcüməçi, dəftərxana müdiri işləmişdir. 1986-cı ildən Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kadrlar şöbəsinin müfəttişi, Bakı Məişət Kondisionerləri İstehsalat Birliyi Texniki xidmət şöbəsinin kadrlar üzrə baş müfəttişi, 1990-cı ildən Nərimanov Rayon Məhkəməsinin məhkəmə icraçısı vəzifələrində çalışmışdır. 1994–2004-cü illərdə Bakı şəhər 41 saylı Dövlət notariat kontorunun dövlət notariusu olmuşdur.

Bitərəfdir.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu məsələləri daimi komissiyası sədrinin müavinidir. Azərbaycan-Almaniya Federativ Respublikası, Azərbaycan-Böyük Britaniya, Azərbaycan-Küveyt, Azərbaycan-Özbəkistan, Azərbaycan-Türkiyə, Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa İttifaqı – Azərbaycan parlament əməkdaşlığı komitəsinin üzvü, MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvü və Hüquq siyasəti komitəsinin sədr müavinidir.

Evlidir, 3 övladı var.



**Valeh Feyruz oğlu**
**ƏLƏSGƏROV**

*102 saylı Samux-Şəmkir seçki dairəsi*

2005-ci il dekabrın 2-dən Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavinidir.

1946-cı il oktyabrın 19-da Samux rayonunun Qarayeri qəsəbəsində anadan olmuşdur. Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun neft və qaz yataqlarının işlənməsinin texnologiyası və kompleks mexanikləşdirilməsi fakültəsini bitirmişdir. Əməkdar mühəndisdir. «Şöhrət» ordeni ilə təltif edilmişdir. Çoxsaylı elmi əsərlərin və ixtiraların müəllifidir. Rus və ingilis dillərini bilir.

1970-ci ildən «Permneft» birliyi «Kunqurneft» NQÇİ-də böyük mühəndis, növbə rəisi, sex rəisi, baş mühəndis, 1982-ci ildən «Permneft» Elmi Tədqiqat və Layihə İnstitutunda bölmə müdiri işləmişdir. 1985-ci ildən «Muradxanlı» NQÇİ-nin baş mühəndisi, idarə rəisinin müavini, 1987-ci ildən «Azərneft» Birliyinin baş mühəndisi, baş direktorunun müavini, 1992-ci ildən «Azərneft» Dövlət Konserninin vitse-prezidenti, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, şirkətin prezidentinin müşaviri olmuş, 1995–2005-ci illərdə ARDNŞ-nin Xarici Sərmayələr İdarəsinin rəisi vəzifəsində çalışmışdır.

Bitərəfdir.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri daimi komissiyasının sədridir.

Avropa İttifaqı – Azərbaycan parlament əməkdaşlığı komitəsinin rəhbəri, Azərbaycan – Rusiya ikitərəfli parlamentlərarası komissiyasının həmsədridir.

Evlidir, 4 övladı var.





**Rafiq Musa oğlu**
**MƏMMƏDHƏSƏNOV**

*103 saylı Gədəbəy seçki dairəsi*

1945-ci il sentyabrın 26-da Gədəbəy şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini bitirmişdir. Tibb elmləri doktoru, professordur. Əməkdar elm xadimidir. Avropa Diabet və Ümumdünya Diabet assosiasiyalarının üzvüdür. 250-dən çox elmi əsərin və 2 dərsliyin müəllifidir. 1 ixtirası vardır. İngilis və rus dillərini bilir.

1969-cu ildən «Naftalan» sanatoriyasında, 1971-ci ildən «Mərdəkan» sanatoriyasında həkim-terapevt işləmişdir. 1977–1986-cı illərdə Azərbaycan Dövlət Tibb İnstitutunda assistent, 1990-cı ildən Daxili xəstəliklər kafedrasının müdiri vəzifələrində çalışmışdır. 1993-cü ildən Azərbaycan Tibb Universitetinin elmi işlər üzrə prorektoru və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baş endokrinoloqudur.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Almaniya Federativ Respublikası, Azərbaycan-Çexiya, Azərbaycan-Fransa, Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.



## Nazim Hüseyn oğlu MƏMMƏDOV

*104 saylı Gədəbəy-Tovuz seçki dairəsi*

1963-cü il mayın 4-də Gədəbəy rayonunun Çayrəsullu kəndində anadan olmuşdur. Voronej Dövlət Aqrar Universitetinin yer quruluşu fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. İqtisad elmləri namizədidir. Çoxsaylı məqalələrin müəllifidir. Rus dilini bilir.

1989-cu ildən Voronej Kənd Təsərrüfatı İnstitutunda kiçik elmi işçi, 1990-cı ildən Voronej Dövlət Aqrar Universitetində müəllim işləmişdir. 1993–1999-cu illərdə Lipetsk şəhərində «Kapital X» MMC-nin baş direktoru, 1996-cı ildən «İmperial LTD» Qapalı Səhmdar Cəmiyyətinin baş direktoru olmuşdur. 2000-ci ildən Bakı şəhərində «Qlobal Kaspian LTD» şirkətinin prezidenti, 2003–2005-ci illərdə «Binapmetal» MMC-nin baş direktoru vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin İqtisadi siyasət daimi komissiyasının üzvüdür. Azərbaycan-Bosniya və Herseqovina, Azərbaycan-İndoneziya, Azərbaycan-Gürcüstan, Azərbaycan-Niderland, Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.



## Qənirə Ələsgər qızı PAŞAYEVA

*105 saylı Tovuz seçki dairəsi*



1975-ci il martın 24-də Tovuz rayonunun Düz Qırıqlı kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Tibb Universitetinin pediatriya fakültəsini və Bakı Dövlət Universitetinin beynəlxalq hüquq fakültəsini bitirmişdir. Rus və ingilis dillərini bilir.

1998-ci ildən ANS televiziya şirkətinin Xəbərlər xidmətində reportyor, müxbir, redaktor, aparıcı redaktor, baş aparıcı redaktor, baş redaktorun müavini, Xəbərlər redaksiyası baş redaktorunun müavini vəzifələrində çalışmışdır. 2005-ci ildən Heydər Əliyev Fondunun İctimaiyyətlə əlaqələr departamentinin rəhbəridir.

Bitərəfdir.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının üzvüdür. Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Hindistan, Azərbaycan-Misir, Azərbaycan-Pakistan, Azərbaycan-Türkiyə, Azərbaycan-Yaponiya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Subaydır.



**İlyas Abbas oğlu**
**İSMAYILOV**

*106 saylı Tovuz-Qazax-Ağstafa*
*seçki dairəsi*

1938-ci il martın 20-də Tovuz şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini və Leninqrad Dövlət Universitetinin əyani aspiranturasını bitirmişdir. Hüquq elmləri doktorudur. 10 monoqrafiyanın və broşürün, 100-dən çox elmi-publisistik məqalənin müəllifidir. Rus dilini bilir.

1962–1963-cü illərdə Azərbaycan Elmlər Akademiyasının Fəlsəfə bölməsində kiçik elmi işçi olmuşdur. 1966-cı ildən Azərbaycan EA-nın Fəlsəfə və Hüquq İnstitutunda kiçik elmi işçi, baş elmi işçi, 1970-ci ildən Azərbaycan Respublikası prokurorunun köməkçisi, 1972-ci ildən Azərbaycan KP MK-nın İnzibati orqanlar şöbəsinin təlimatçısı işləmişdir. 1978-ci ildən Azərbaycan Respublikası prokurorunun müavini, 1985-ci ildən Azərbaycan Respublikasının prokuroru, 1990-cı ildən SSRİ Prokurorluğunda şöbə rəisi, 1992-ci ildən Azərbaycan Respublikasının ədliyyə naziri, 1996–1998-ci illərdə Ali Diplomatiya Kollecində Beynəlxalq hüquq kafedrasının müdiri vəzifələrində çalışmışdır.

Ədalət Partiyasının sədridir.

Milli Məclisin İnsan hüquqları daimi komissiyasının üzvüdür. Azərbaycan-Almaniya Federativ Respublikası, Azərbaycan-Amerika Birləşmiş Ştatları, Azərbaycan-Latviya, Azərbaycan-Rusiya, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa İttifaqı – Azərbaycan parlament əməkdaşlığı komitəsinin üzvüdür.

Evlidir, 2 övladı var.



**Vaqif Səməd oğlu**
**VƏKİLOV**



*107 saylı Qazax*
*seçki dairəsi*

1939-cu il iyunun 5-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Konservatoriyasının ifaçılıq fakültəsini bitirmişdir. Azərbaycanın xalq şairi, əməkdar incəsənət xadimidir. «Şöhrət» ordeni ilə təltif edilmişdir. Müxtəlif dillərdə çap olunmuş şeir və dram əsərlərindən ibarət 10-dan çox kitabın müəllifidir. Rus dilini bilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Əfv məsələləri komissiyasının üzvüdür.

1963–1971-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasında müəllim işləmişdir. 1968-ci ildən «Azərbaycan Ensiklopediyası» nəşriyyatında şöbə müdiri, 1973-cü ildən Azərbaycan Kinostudiyasında ssenariçi, 1992-ci ildən «Oğuz eli» qəzetinin baş redaktoru vəzifələrində çalışmışdır.

Bitərəfdir.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Mədəniyyət məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Finlandiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-İsrail, Azərbaycan-Qırğızıstan parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 3 övladı var.



**Nizami Qulu oğlu**
**CƏFƏROV**

*108 saylı Ağstafa seçki dairəsi*

1959-cu il sentyabrın 21-də Ağstafa rayonunun Zəlimxan kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. Filologiya elmləri doktoru, professor, əməkdar elm xadimidir. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvüdür. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 50-dən çox kitabın müəllifidir. Rus, ingilis və fars dillərini bilir.

1985-ci ildən Azərbaycan EA-nın Nəsimi adına Dilçilik İnstitutunun elmi işçisi olmuşdur. 1987-ci ildən «Ədəbiyyat və incəsənət» qəzetinin şöbə müdiri, 1991-ci ildən Bakı Dövlət Universitetinin Türkologiya kafedrasının müəllimi, professoru, 1994-cü ildən filologiya fakültəsinin dekanı vəzifələrində çalışmışdır. 2000-ci ildən Bakı Dövlət Universitetinin kafedra müdiri, Azərbaycanda Atatürk Mərkəzinin müdiridir.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Mədəniyyət məsələləri daimi komissiyasının sədridir. Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Qazaxıstan, Azərbaycan-Qırğızıstan, Azərbaycan-Küveyt parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.



**Rəbiyyət Nurullah qızı**
**ASLANOVA**



*109 saylı Balakən seçki dairəsi*

1951-ci il iyulun 4-də Kəlbəcər şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. Fəlsəfə elmləri doktoru, professordur. 4 kitabın və 40 məqalənin müəllifidir. Rus və ingilis dillərini bilir.

1978-ci ildən Azərbaycan Dövlət Universitetində assistent, baş müəllim, dosent vəzifələrində çalışmışdır. 2004-cü ildən Bakı Dövlət Universitetinin Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının professorudur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin İnsan hüquqları daimi komissiyasının sədridir. Azərbaycan-Moldova parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Böyük Britaniya, Azərbaycan-Mərakeş, Azərbaycan-Türkmənistan parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

ATƏT-in Parlament Assambleyasında və MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətlərinin üzvüdür.

Evlidir, 3 övladı var.



**Hikmət İsmayıl oğlu**
**ATAYEV**

*110 saylı Zaqatala*
*seçki dairəsi*

1953-cü il fevralın 4-də Zaqatala şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Tibb Universitetinin müalicə-profilaktika fakültəsini bitirmişdir. Rus və ingilis dillərini bilir.

1977-ci ildən Zaqatala Rayon Mərkəzi Xəstəxanasında cərrah, 2002-ci ildən Cərrahiyyə şöbəsinin müdiri vəzifələrində çalışmışdır. 2005–2006-cı illərdə Zaqatala şəhər bələdiyyəsinin sədri olmuşdur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Sosial siyasət daimi komissiyasının üzvüdür. Azərbaycan-Almaniya Federativ Respublikası, Azərbaycan-Böyük Britaniya, Azərbaycan-Finlandiya, Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 4 övladı var.



**Dünyamin Zakir oğlu**
**XƏLİLOV**



*111 saylı Zaqatala-Balakən*
*seçki dairəsi*

1961-ci il dekabrın 11-də Tbilisi şəhərində anadan olmuşdur. Azərbaycan Neft və Kimya İnstitutunun elektromexanika fakültəsini və Azərbaycan Universitetinin hüquq fakültəsini bitirmişdir. Rus, gürcü və ingilis dillərini bilir.

1984-cü ildən «Xəzərdənizneftqazsənaye» Ümumittifaq Sənaye Birliyində mühəndis, mühəndis-sazlayıcı, «Şelfqazavtomatika» İdarəsində mühəndis-sazlayıcı, mühəndis-dispetçer, 1991-ci ildən «İntexsentr» mərkəzində şöbə rəisi, Kinematoqrafçılar İttifaqının «Damla» təşkilatında sərəncamçı menecer, direktor müavini işləmişdir. 1992-ci ildən Azərbaycan Respublikasının Xarici İqtisadi Əlaqələr Nazirliyinin «Vneşekspertservis» şirkətində şöbə rəisi, direktor müavini, 1994-cü ildən «Avant» Məhdud Məsuliyyətli Cəmiyyətinin meneceri, 1997-ci ildən «Nurimpeks» Məhdud Məsuliyyətli Cəmiyyətinin baş direktoru, 1998-ci ildən «Vneşekspertservis» Məhdud Məsuliyyətli Cəmiyyətinin baş meneceri vəzifələrində çalışmışdır. 2004–2005-ci illərdə «General Construction» Məhdud Məsuliyyətli Cəmiyyətinin baş direktoru olmuşdur.

Bitərəfdir.

Milli Məclisin İqtisadi siyasət daimi komissiyasının üzvüdür. Azərbaycan-Amerika Birləşmiş Ştatları, Azərbaycan-Bolqarıstan, Azərbaycan-Gürcüstan, Azərbaycan-Latviya, Azərbaycan-Mərakeş, Azərbaycan-Sloveniya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.



**Azər Şəmşid oğlu**
**KƏRİMLİ**

*112 saylı Qax seçki dairəsi*

1964-cü il iyulun 6-da Bakı şəhərində anadan olmuşdur. Moskva Yüngül Sənaye Texnologiya İnstitutunun dəri məmulatının texnologiyası fakültəsini bitirmişdir. Rus dilini bilir.

1992-ci ildən «Fəxri» firmasının direktoru, 1999–2000-ci illərdə «Qamma», «Lotos» şirkətlərinin prezidenti vəzifələrində çalışmışdır.

Bitərəfdir.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Aqrar siyasət daimi komissiyasının üzvüdür. Azərbaycan-İtaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Çexiya, Azərbaycan-İspaniya, Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.



**Əli Əhməd oğlu**
**MƏSİMLİ**

*113 saylı Şəki şəhər seçki dairəsi*



1953-cü il yanvarın 3-də Şəki şəhərində anadan olmuşdur. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun siyasi iqtisad fakültəsini bitirmişdir. İqtisad elmləri namizədidir. Çoxsaylı broşürlərin və məqalələrin müəllifidir. Rus dilini bilir.

1980-ci ildən Azərbaycan EA-nın İqtisadiyyat İnstitutunda laborant, kiçik elmi işçi, elmi işçi, şöbə müdiri işləmişdir. 1991-ci ildən Azərbaycan Respublikası Prezidenti Aparatının İqtisadiyyatın idarə edilməsinin təşkili şöbəsinin bölmə müdiri, Sosial-iqtisadi inkişaf şöbəsinin baş məsləhətçisi, 1992-ci ildən Azərbaycan Respublikası Xarici İnvestisiyalar Komitəsinin sədri, Azərbaycan Respublikası Baş nazirinin birinci müavini, Dövlət İqtisadiyyat və Planlaşdırma Komitəsinin sədri, Baş nazir əvəzi, iqtisadiyyat naziri, 1993–2005-ci illərdə «Müstəqil İqtisadçılar Birliyi» ictimai təşkilatının prezidenti vəzifələrində çalışmışdır.

Azad Demokratlar Birliyi Təşkilat Komitəsinin sədridir.

Milli Məclisin İqtisadi siyasət daimi komissiyasının üzvüdür. Azərbaycan-Çin, Azərbaycan-Xorvatiya, Azərbaycan-İsveçrə, Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

GUAM-ın Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 2 övladı var.



## Yaqub Mikayıl oğlu MAHMUDOV

*114 saylı Şəki kənd birinci seçki dairəsi*

1939-cu il fevralın 10-da Şəki rayonunun Baş Göynük kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. Tarix elmləri doktoru, professordur. Əməkdar elm xadimidir. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvüdür. Lütfizadə adına Beynəlxalq Müasir Elmlər Akademiyasının həqiqi üzvüdür. «Şöhrət» ordeni ilə təltif edilmişdir. «Qızıl qələm», «Qızıl qılınc», Yusif Məmmədəliyev, Rəsul Rza, Samir Əsgərxanov mükafatları laureatıdır. 1000-dən çox elmi əsərin və elmi-publisistik məqalənin müəllifidir. Rus və ingilis dillərini bilir.

1956-cı ildən Balakən rayonunun Sarıbulaq kənd orta məktəbində müəllim işləmişdir. 1966-cı ildən Azərbaycan Sovet Ensiklopediyası redaksiyasında elmi redaktor, böyük elmi redaktor, redaksiya müdiri, baş redaktorun elmi işlər üzrə müavini, 1974-cü ildən Azərbaycan Dövlət Pedaqoji İnstitutunda baş müəllim, dosent, 1981-ci ildən Azərbaycan Dövlət Universitetində dosent, kafedra müdiri, tarix fakültəsi dekanının müavini, 1992-ci ildən Azərbaycan Respublikası Ali Attestasiya Komissiyası sədrinin müavini, «Azərbaycan Ensiklopediyası» Nəşriyyat-Poliqrafiya Birliyinin baş direktoru vəzifələrində çalışmışdır. 1986–2004-cü illərdə Bakı Dövlət Universiteti tarix fakültəsinin dekanı olmuşdur. 2004-cü ildən Azərbaycan MEA-nın Tarix İnstitutunun direktorudur.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Sosial siyasət daimi komissiyasının üzvüdür. Milli Məclis yanında Toponimiya komissiyasının üzvüdür. Azərbaycan-Xorvatiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-İtaliya, Azərbaycan-Macarıstan, Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Parlamentlərarası İttifaqda Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 3 övladı var.





## Məjlum Şükür oğlu ŞÜKÜROV

*115 saylı Şəki kənd ikinci seçki dairəsi*

1954-cü il sentyabrın 1-də Şəki rayonunun Aşağı Küngüt kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini bitirmişdir. Texnika elmləri doktorudur. 62 elmi və elmi-publisistik əsərin müəllifidir. Rus və ingilis dillərini bilir.

1976-cı ildən Azərbaycan EA-nın Kibernetika İnstitutunda mühəndis-riyaziyyatçı, proqramçı, mühəndis işləmişdir. 1984-cü ildən Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi Elmi Tədqiqat Əkinçilik İnstitutunun kiçik elmi işçisi, baş elmi işçisi olmuşdur. 1989–1994-cü illərdə Sankt-Peterburq şəhərində doktoranturada təhsil almış və «Azəri» cəmiyyətinə rəhbərlik etmişdir. 1996-cı ildən Elmi Tədqiqat Əkinçilik İnstitutunun Şəki Dayaq Məntəqəsinin direktoru, 2001–2005-ci illərdə Şəki Regional Aqrar Elmi Mərkəzinin direktoru vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Aqrar siyasət daimi komissiyasının üzvüdür. Azərbaycan-Əfqanıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Estoniya, Azərbaycan-Liviya, Azərbaycan-Yunanıstan parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.



**Fəttah Səməd oğlu**
**HEYDƏROV**

*116 saylı Qəbələ seçki dairəsi*

1938-ci il fevralın 23-də Naxçıvan Muxtar Respublikası Babək rayonunun Çeşməbasar kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini və Ali Partiya Məktəbini bitirmişdir. «Şöhrət» ordeni ilə təltif edilmişdir. Rus dilini bilir.

1955-ci ildən Naxçıvan Muxtar Respublikasında kənd klubunun müdiri, kənd məktəbinin müəllimi işləmişdir. 1966-cı ildən Naxçıvan Vilayət Partiya Komitəsinin təlimatçısı, 1970-ci ildən Ordubad Rayon Partiya Komitəsinin ikinci katibi, 1976-cı ildən Naxçıvan Muxtar Respublikasının əhaliyə məişət xidməti naziri olmuşdur. 1978-ci ildən Ordubad Rayon Partiya Komitəsinin, 1980-ci ildən Culfa Rayon Partiya Komitəsinin birinci katibi, 1983–1995-ci illərdə Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri vəzifələrində çalışmışdır.

Bitərəfdir.

Birinci və ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Regional məsələlər daimi komissiyası sədrinin müavinidir. Azərbaycan-Səudiyyə Ərəbistanı parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Almaniya Federativ Respublikası, Azərbaycan-Avstriya, Azərbaycan-Koreya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

ATƏT-in Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 5 övladı var.





**Eyvaz Daşdəmir oğlu**
**QURBANOV**

*117 saylı Oğuz-Qəbələ seçki dairəsi*

1963-cü il fevralın 14-də Oğuz rayonunun Bucaq kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun bədən tərbiyəsi və idman fakültəsini və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dövlət və bələdiyyə idarəetməsi fakültəsini bitirmişdir. Azərbaycan Milli Olimpiya Komitəsi Təftiş komissiyasının üzvüdür. Rus dilini bilir.

1988-ci ildən Oğuz rayonunda orta məktəbdə müəllim işləmişdir. 1994-cü ildən T.Bəhramov adına Respublika Stadionunun direktoru vəzifəsində çalışmışdır. 2000-ci ildən «Olimpiya» idman kompleksinin direktorudur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Sosial siyasət daimi komissiyasının üzvüdür. Azərbaycan-Avstriya, Azərbaycan-Macarıstan, Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.



**Bəxtiyar Həmzə oğlu**
**ƏLİYEV**

*118 saylı Ağdam şəhər seçki dairəsi*

1961-ci il martın 20-də Ağdam rayonunun Papravənd kəndində anadan olmuşdur. Moskva Dövlət Universitetinin psixologiya fakültəsini bitirmişdir. Psixologiya elmləri doktoru, fəlsəfə elmləri namizədi, professordur. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvüdür. 3 monoqrafiyanın, 8 kitabın və 90 elmi məqalənin müəllifidir. Rus və ingilis dillərini bilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Əfv məsələləri komissiyasının, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə komissiyasının üzvüdür.

1983–1997-ci illərdə Azərbaycan Dövlət Universitetində baş laborant, müəllim, baş müəllim, dekan müavini, dosent vəzifələrində çalışmışdır. 1997-ci ildən Bakı Dövlət Universitetinin Psixologiya kafedrasının müdiridir.

Bitərəfdir.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyası sədrinin müavinidir. Azərbaycan-İndoneziya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-İsrail, Azərbaycan-İsveçrə, Azərbaycan-Yunanıstan parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 2 övladı var.



**Bəxtiyar Yusif oğlu**
**SADIQOV**



*119 saylı Ağdam kənd seçki dairəsi*

1951-ci il yanvarın 10-da Ağdam şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir. Əməkdar jurnalistdir. İki dəfə «Qızıl qələm» mükafatı laureatıdır. Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin üzvüdür. 3 kitabın müəllifidir. Rus dilini bilir.

Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar dövlət komissiyasının üzvüdür.

1975-ci ildən «Abşeron» qəzetinin korrektoru, müxbiri, şöbə müdiri, redaktor müavini, 1987-ci ildən «Kommunist» qəzetinin baş müxbiri, şöbə müdiri, 1990-cı ildən «Həyat» qəzetinin bölgə müxbiri, 1992-ci ildən «Azərbaycan» qəzetinin müxbiri, şöbə müdiri vəzifələrində çalışmışdır. 2002-ci ildən «Azərbaycan» qəzetinin baş redaktorudur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Təhlükəsizlik və müdafiə məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Böyük Britaniya, Azərbaycan-Fransa, Azərbaycan-İtaliya, Azərbaycan-Qazaxıstan, Azərbaycan-Səudiyyə Ərəbistanı parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.



**Astan Nuşrəvan oğlu**
**ŞAHVERDİYEV**

*120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsi*

1947-ci il fevralın 15-də Füzuli şəhərində anadan olmuşdur. Azərbaycan Neft və Kimya İnstitutunun istehsal proseslərinin avtomatlaşdırılması fakültəsini, Azərbaycan Politexnik İnstitutunun mexanika fakültəsini bitirmişdir. Texnika elmləri doktoru, professordur. Nyu-York Elmlər Akademiyasının həqiqi üzvüdür. YUNESKO-nun alternativ enerji mənbələri üzrə işçi qrupunun və idarəedici komitəsinin üzvüdür. 10 dərsliyin və monoqrafiyanın, 300-dən çox elmi məqalənin müəllifidir. 2 ixtirası vardır. İngilis və rus dillərini bilir.

1966-cı ildən Azərbaycan Politexnik İnstitutunda laborant, baş laborant, mexanik, laboratoriya müdiri, dosent və professor vəzifələrində çalışmışdır. 2001-ci ildən Azərbaycan Texniki Universitetinin kafedra müdiridir.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Türkmənistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-İordaniya, Azərbaycan-Niderland, Azərbaycan-Serbiya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.





**Sevindik Hacağa oğlu**
**HƏTƏMOV**

*121 saylı Laçın seçki dairəsi*

1963-cü il aprelin 7-də Laçın rayonunun Güləbird kəndində anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunun mexanika fakültəsini bitirmişdir. Rus dilini bilir.

1987-ci ildən Laçın rayonunda təchizat birliyində mühəndis, nəqliyyat müəssisəsində böyük mühəndis, tikinti-quraşdırma sahəsinin rəisi vəzifələrində çalışmışdır. 1997–2005-ci illərdə Güzdək Tikinti Materialları Kombinatının direktoru işləmişdir.

Yeni Azərbaycan Partiyası Laçın rayon təşkilatının sədridir.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Avstriya, Azərbaycan-Belarus, Azərbaycan-Əfqanıstan, Azərbaycan-Finlandiya, Azərbaycan-Qazaxıstan, Azərbaycan-Macarıstan, Azərbaycan-Portuqaliya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.



**Havva İsa qızı**
**MƏMMƏDOVA**

*122 saylı Xankəndi*
*seçki dairəsi*

1958-ci il mayın 15-də Bərdə rayonunun Xanərəb kəndində anadan olmuşdur. Xankəndi Pedaqoji İnstitutunun tarix fakültəsini və Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu bitirmişdir. Tarix elmləri namizədidir. 6 kitabın və 40 elmi məqalənin müəllifidir. Qarabağın azərbaycanlı icmasının rəhbərlərindən biridir. Dünya Azərbaycanlıları Konqresi Qadınlar Şurasının sədridir. Rus dilini bilir.

1980–1990-cı illərdə Xankəndi şəhərində orta məktəbdə müəllim işləmişdir. 1993-cü ildən Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunda baş laborant, baş müəllim, metodist vəzifələrində çalışmışdır. 1999-cu ildən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının müəllimidir.

Bitərəfdir.

Milli Məclisin İnsan hüquqları daimi komissiyasının üzvüdür. Azərbaycan-Danimarka, Azərbaycan-İsveç, Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 3 övladı var.





**Cavid Qənbər oğlu**
**QURBANOV**

*123 saylı Kəlbəcər*
*seçki dairəsi*

1958-ci il sentyabrın 19-da Kəlbəcər rayonunun Ağdaban kəndində anadan olmuşdur. Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun tikinti və yol maşınları avadanlıqları fakültəsini və «Təfəkkür» Universitetinin dəmir yolu tikintisi və təsərrüfatı fakültəsini bitirmişdir. Texnika elmləri namizədidir. Bir sıra elmi əsərlərin müəllifidir. Rus dilini bilir.

1980-ci ildən «Azərdövlət» Layihə İnstitutunda xətçəkən, 1982-ci ildən «Azərnəqliyyat» Tikinti Trestinin avtobazasında növbətçi, mexanik, baş mexanik, rəis müavini, 1987-ci ildən Avtonəqliyyat kontorunun direktoru, 1992-ci ildən Avtomobil Nəqliyyatı Birliyinin baş direktoru, 1993-cü ildən «Azəravtoyol» Dövlət Şirkətinin prezidenti, «Avtoərzaqnəqliyyat» Birliyinin baş direktoru işləmişdir. 1996-cı ildən Azərbaycan Dövlət Dəmir Yolu Bakı bölməsinin şöbə rəisi, «Azərdəmiryoltikintiservis» İstehsalat Birliyinin rəisi, 2000-ci ildən «Azərdəmiryolservis» İstehsalat Birliyinin rəisi, yol rəisinin müavini, 2003-cü ildən Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin «Yolnəqliyyatservis» departamentinin rəisi vəzifələrində çalışmışdır. 2007-ci ildən Nəqliyyat Nazirliyinin «Azəryolservis» Açıq Səhmdar Cəmiyyətinin sədridir.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Avstriya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Çexiya, Azərbaycan-Misir, Azərbaycan-Slovakiya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

2 övladı var.



**Elman Camal oğlu**
**MƏMMƏDOV**

*124 saylı Şuşa-Füzuli-Xocalı-Xocavənd seçki dairəsi*

1950-ci il oktyabrın 18-də Xocalı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun riyaziyyat fakültəsini və Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu bitirmişdir. Qarabağ müharibəsi veteranıdır. «Azərbaycan Bayrağı» ordeni ilə təltif edilmişdir. Rus və erməni dillərini bilir.

1973-cü ildən Xocalı kənd orta məktəbində müəllim, direktor müavini, direktor işləmişdir. 1985-ci ildən Xocalı tərəvəzçilik-südçülük sovxozunda partiya təşkilatının katibi, 1987-ci ildən Xocalı İcraiyyə Komitəsinin sədri olmuşdur. 1990–1991-ci illərdə Xocalı Ərazi Partiya Komitəsinin birinci katibi və Xocalı Ərazi İcraiyyə Komitəsinin sədri, 1991–2000-ci illərdə Xocalı İcra Hakimiyyətinin başçısı vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Təhlükəsizlik və müdafiə məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Belarus, Azərbaycan-Bolqarıstan, Azərbaycan-Fransa, Azərbaycan-İsveçrə, Azərbaycan-Lüksemburq parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

GUAM-ın Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 7 övladı var.





**İmamverdi İbiş oğlu**
**İSMAYILOV**

*125 saylı Zəngilan-Qubadlı seçki dairəsi*

1958-ci il iyunun 10-da Zəngilan rayonunun Vənətli kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini və Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu bitirmişdir. «Qızıl qələm» mükafatı laureatıdır. Bir neçə kitabın müəllifidir. Rus və ingilis dillərini bilir.

1980-ci ildən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində ştatdankənar müxbir, kiçik redaktor, redaktor, böyük redaktor, şöbə müdiri, Azərbaycan televiziyasının «Gənclik» baş redaksiyasının baş redaktoru vəzifələrində çalışmışdır. 1990–1992-ci illərdə «Kirpi» jurnalının şöbə müdiri olmuşdur. Hazırda Azərbaycan Respublikası Mətbuat Fondunun sədridir.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Birinci və ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Mədəniyyət məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Avstraliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Səudiyyə Ərəbistanı, Azərbaycan-Yaponiya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisində Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 3 övladı var.

# MƏQAMLAR














90








"HƏR BIR DEMOKRATİK DÖVLƏTDƏ,
HAKİMİYYƏT BÖLGÜSÜ PRİNSİPİ
ƏSASINDA QURULMUŞ DÖVLƏTDƏ
QANUNVERİCİLİK FƏALİYYƏTİ ÇOX
MÜHÜM ƏHƏMİYYƏT KƏSB EDİR"
HEYDƏR ƏLİYEV
HEYDƏR










































AZƏRBAYCAN RESPUBLİKASININ







## MÜNDƏRİCAT

**Azərbaycan Respublikasının Milli Məclisi** . . . . . . . . . . . . . . . . . . . . . . . . . 3

**Azərbaycan parlamenti yeni dövrdə** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 5

**Məlumatlar** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 11

Vasif Yusif oğlu **Talıbov** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 12
İsa Əkbər oğlu **Həbibbəyli** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 13
Səttar Suliddin oğlu **Möhbalıyev** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 14
Eldar Rza oğlu **İbrahimov** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 15
Siyavuş Dünyamalı oğlu **Novruzov** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 16
İsmayıl Muxtar oğlu **Hacıyev** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 17
Əkrəm Nəcəf oğlu **Naibov-Əylisli** (Əkrəm Əylisli) . . . . . . . . . . . . . . . . . . . . 18
Arzu Həbib oğlu **Səmədbəyli** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 19
Rafael Kamil oğlu **Cəbrayılov** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 20
Madər Ələsgər oğlu **Musayev** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 21
Murtuz Nəcəf oğlu **Ələsgərov** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 22
Mixail Yuryeviç **Zabelin** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 23
Rauf Asif oğlu **Əliyev** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 24
Mehriban Arif qızı **Əliyeva** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 25
Gülər Mikayıl qızı **Əhmədova** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 26
Abel Məmmədəli oğlu **Məhərrəmov** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 27
Cəmil Poladxan oğlu **Həsənli** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 28
Əli Cavad oğlu **Əhmədov** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 29
Adil Abış oğlu **Əliyev** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 30
Ülvi Zahid oğlu **Quliyev** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 31
Asim Nazim oğlu **Mollazadə** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 32
Ziyad Əliabbas oğlu **Səmədzadə** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 33
Rövnəq İbrahim oğlu **Abdullayev** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 34
Fazil Qəzənfər oğlu **Mustafa** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 35
Fərrux Məmmədnəbi oğlu **Zeynalov** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 36
Eldar Allahyar oğlu **Quliyev** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 37
Fuad Rauf oğlu **Muradov** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 38
Anar Camali oğlu **Məmmədxanov** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 39

Əhməd Abdulkərim oğlu **Vəliyev** . . . . . 40
Ağacan Qulam oğlu **Abıyev** . . . . . 41
Hüseynbala Fazil oğlu **Mirələmov** . . . . . 42
Nəsib Loğman oğlu **Nəsibli** . . . . . 43
İqbal Fehruz oğlu **Ağazadə** . . . . . 44
Səməd İsmayıl oğlu **Seyidov** . . . . . 45
Aydın Abbas oğlu **Abbasov** . . . . . 46
Asəf Hacı oğlu **Hacıyev** . . . . . 47
Vidadi Yunis oğlu **Məmmədov** . . . . . 48
Musa İsa oğlu **Quliyev** (Musa Urud) . . . . . 49
İkram İsrail oğlu **İsrafil** . . . . . 50
Məcid Zahid oğlu **Kərimov** . . . . . 51
Nizami Zaman oğlu **İsgəndərov** . . . . . 52
Baba Əli oğlu **Tağıyev** . . . . . 53
Oqtay Sabir oğlu **Əsədov** . . . . . 54
Azay Əjdər oğlu **Quliyev** . . . . . 55
Aydın Böyükkişi oğlu **Mirzəzadə** . . . . . 56
İlham Kazım oğlu **Məmmədov** . . . . . 57
Əli Məhəmməd oğlu **Hüseynov** . . . . . 58
Zeynəb Yəhya qızı **Xanlarova** . . . . . 59
Xəlilbəy Günəş oğlu **Günəşov** . . . . . 60
Vahid Qazməmməd oğlu **Əhmədov** . . . . . 61
Yevda Sasunoviç **Abramov** . . . . . 62
Tahir Süleyman oğlu **Süleymanov** . . . . . 63
Lalə Gülbaba qızı **Abbasova** . . . . . 64
Nizami Mənaf oğlu **Xudiyev** . . . . . 65
Fərhad Həsən oğlu **Qəribov** . . . . . 66
Rafael Baba oğlu **Hüseynov** . . . . . 67
Əkrəm Kamal oğlu **Abdullayev** . . . . . 68
Fəzail Rəhim oğlu **Ağamalı** . . . . . 69
Arif Qafar oğlu **Rəhimzadə** . . . . . 70
Cəlal Əlirza oğlu **Əliyev** . . . . . 71
Pənah Çodar oğlu **Hüseyn** . . . . . 72
Rüstəm Gülabba oğlu **Xəlilov** . . . . . 73
Gülhüseyn Əliəhməd oğlu **Əhmədov** . . . . . 74



Xanhüseyn Hüseynağa oğlu **Kazımlı** . . . . . 75
Aydın Xanhüseyn oğlu **Həsənov** . . . . . 76
Mirkazım Məhəmməd oğlu **Kazımov** . . . . . 77
Fəzail Feyruz oğlu **İbrahimli** . . . . . 78
Əhəd Mikayıl oğlu **Abıyev** . . . . . 79
Elmira Hüseyn qızı **Axundova** . . . . . 80
Sabir Xudu oğlu **Rüstəmxanlı** . . . . . 81
Rüfət Atakişi oğlu **Quliyev** . . . . . 82
Hadi Musa oğlu **Rəcəbli** . . . . . 83
Cavanşir Hümmət oğlu **Paşazadə** . . . . . 84
Ziyafət Abbas oğlu **Əsgərov** . . . . . 85
Vasif İzzət oğlu **Əliyev** . . . . . 86
Miri Əhəd oğlu **Qənbərov** . . . . . 87
İltizam Nizam oğlu **Əkbərli** . . . . . 88
Əhəd Abbas oğlu **Əhmədov** . . . . . 89
Səfər Musa oğlu **Məmmədov** . . . . . 90
Tahir Musa oğlu **Rzayev** . . . . . 91
Aqil Məhəmməd oğlu **Abbasov** . . . . . 92
Bahar Əvəz qızı **Muradova** . . . . . 93
Maqsud Məmmədibrahim oğlu **İbrahimbəyov** . . . . . 94
Novruzəli Davud oğlu **Aslanov** . . . . . 95
Ərəstun Nurəddin oğlu **Cavadov** . . . . . 96
Sabir Kamal oğlu **Hacıyev** . . . . . 97
Şəmsəddin Hümmət oğlu **Hacıyev** . . . . . 98
Çingiz Rauf oğlu **Əsədullayev** . . . . . 99
Elton Arzuman oğlu **Məmmədov** . . . . . 100
Jalə Fazil qızı **Əliyeva** . . . . . 101
Zahid Məhərrəm oğlu **Orucov** . . . . . 102
Gövhər Baxşəli qızı **Baxşəliyeva** . . . . . 103
Aynur Camal qızı **Quliyeva** . . . . . 104
Gültəkin Yunis qızı **Hacıbəyli** . . . . . 105
Qüdrət Müzəffər oğlu **Həsənquliyev** . . . . . 106
Məlahət İbrahim qızı **İbrahimqızı** (Həsənova) . . . . . 107
Mübariz Qəhrəman oğlu **Qurbanlı** . . . . . 108
Rövşən Şükür oğlu **Rzayev** . . . . . 109

Valeh Feyruz oğlu **Ələsgərov** . . . . . . . . . . 110
Rafiq Musa oğlu **Məmmədhəsənov** . . . . . . . . . . 111
Nazim Hüseyn oğlu **Məmmədov** . . . . . . . . . . 112
Qənirə Ələsgər qızı **Paşayeva** . . . . . . . . . . 113
İlyas Abbas oğlu **İsmayılov** . . . . . . . . . . 114
Vaqif Səməd oğlu **Vəkilov** . . . . . . . . . . 115
Nizami Qulu oğlu **Cəfərov** . . . . . . . . . . 116
Rəbiyyət Nurullah qızı **Aslanova** . . . . . . . . . . 117
Hikmət İsmayıl oğlu **Atayev** . . . . . . . . . . 118
Dünyamin Zakir oğlu **Xəlilov** . . . . . . . . . . 119
Azər Şəmşid oğlu **Kərimli** . . . . . . . . . . 120
Əli Əhməd oğlu **Məsimli** . . . . . . . . . . 121
Yaqub Mikayıl oğlu **Mahmudov** . . . . . . . . . . 122
Məjlum Şükür oğlu **Şükürov** . . . . . . . . . . 123
Fəttah Səməd oğlu **Heydərov** . . . . . . . . . . 124
Eyvaz Daşdəmir oğlu **Qurbanov** . . . . . . . . . . 125
Bəxtiyar Həmzə oğlu **Əliyev** . . . . . . . . . . 126
Bəxtiyar Yusif oğlu **Sadıqov** . . . . . . . . . . 127
Astan Nuşrəvan oğlu **Şahverdiyev** . . . . . . . . . . 128
Sevindik Hacağa oğlu **Hətəmov** . . . . . . . . . . 129
Havva İsa qızı **Məmmədova** . . . . . . . . . . 130
Cavid Qənbər oğlu **Qurbanov** . . . . . . . . . . 131
Elman Camal oğlu **Məmmədov** . . . . . . . . . . 132
İmamverdi İbiş oğlu **İsmayılov** . . . . . . . . . . 133

**Məqamlar** . . . . . . . . . . 135



**AZƏRBAYCAN RESPUBLİKASININ**
**MİLLİ MƏCLİSİ**
üçüncü çağırış

Tərtibçilər

***Səfa MİRZƏYEV***
***Hafiz BABAYEV***

Kitabın dizaynı **Rauf Nəsirovundur**
Fotolar **Rafiq Qəmbərovundur**

**Azərbaycan Respublikası Milli Məclisinin nəşri**

Çapa imzalanmışdır 30.01.2009
Formatı 15x21 sm. Fiziki çap vərəqi A5. Şərti çap vərəqi 9,75
Tiraj 500